# HAKİMLƏR KİTABI

## GİRİŞ

*«Hakimlər»* Kitabı İsrail tarixində Kənan torpağının zəbt olunması və padşahlığın əsasının qoyulması arasındakı dövrü təsvir edir. Bu, qanunsuzluq dövrü idi. Kitabın əsas ideyası budur: «O dövrdə İsraildə padşah yox idi, hərə öz gözündə doğru görünən işi edirdi» (17:6, 21:25).

Burada yazılan hekayələr «hakimlər» adlanan milli qəhrəmanların rəşadətindən bəhs edir. Əslində onların əksəri hakimlərdən çox hərbi başçı idi. Kitabın verdiyi ibrət dərsi budur ki, İsrailin varlığı Allaha sadiqliyindən asılı idi, çünki onların vəfasızlığı başlarına bəla gətirirdi. Amma ən vacib şey odur ki, İsrail xalqı Allaha vəfasız olub üzərinə bəla gətirsə də, onlar Allaha tərəf dönüb tövbə etdikdə O Öz xalqını xilas etməyə həmişə hazır idi.

**Kitabın məzmunu:**

- 1:1–2:10 Yeşuanın ölümünə qədər baş verən hadisələr
- 2:11–3:6 İsrail Rəbdən üz döndərir
- 3:7–16:31 İsrailin hakimləri
  - 3:7-31 Otniel, Ehud, Şamqar
  - 4:1–5:3 Devora və Baraq
  - 6:1–8:35 Gideon
  - 9:1-57 Avimelek
  - 10:1–12:7 Tola, Yair, İftah
  - 12:8-15 İvsan, Elon və Avdon
  - 13:1–16:31 Şimşon

## 17:1–21:25 Müxtəlif hadisələr

*Yerusəlimin alınması*

1 Yeşuanın ölümündən sonra İsrail övladları
Rəbdən soruşdu: «Bizim üçün Kənanlılara qarşı
döyüşə birinci kim çıxacaq?» 2 Rəbb dedi:
«Yəhudalılar çıxacaq, budur, Mən torpağı onlara
təslim edirəm».
3 Yəhudalılar soydaşları Şimeonlulara dedi:
«Torpağın bizə düşən hissəsinə gəlin, Kənanlılara
qarşı vuruşmaq üçün bizimlə döyüşə çıxın. Sonra
da torpağın sizə düşən hissəsinə gəlib sizinlə
bərabər biz döyüşə çıxarıq». 4 Yəhudalılar döyüşə
çıxdı. Rəbb Kənanlılarla Perizliləri onlara təslim
etdi və Yəhudalılar Bezeqdə onlardan on min
nəfər adamı qırdı. 5 Bezeqdə Adoni-Bezeqi tapıb
vuruşdular və həm Kənanlıları, həm də Perizliləri
qırdılar. 6 Lakin Adoni-Bezeq qaçdı və Yəhudalılar
onun ardınca qaçıb əllərinin və ayaqlarının baş
barmaqlarını kəsdilər. 7 Adoni-Bezeq dedi:
«Mənim masamın altında yetmiş padşah əl və
ayaqlarının baş barmaqları kəsilmiş halda çörək
qırıntıları dənləyirdi. Mən necə etmişdimsə, Allah
da mənə əvəzini elə verdi». Yəhudalılar Adoni-
Bezeqi Yerusəlimə gətirdi və o orada öldü.
8 Yəhuda övladları Yerusəlimə hücum edib vu-
ruşdu və oranı alıb əhalisini qılıncdan keçirdilər.
Şəhərə isə od vurub yandırdılar. 9 Bundan sonra
Yəhuda övladları dağlıq bölgədə, Negevdə və ya-
maclı-düzənlikli bölgədə yaşayan Kənanlılara qarşı
vuruşmaq üçün endilər. 10 * Əvvəlki adı Qiryat-
Arba olan Xevronda yaşayan Kənanlılara qarşı

* **1:10** Yeşua 15:14-19

yürüş edib Şeşayı, Aximanı və Talmayı məğlub et-
dilər.
11 Oradan da əvvəlki adı Qiryat-Sefer olan Devir
əhalisinə qarşı yürüş etdilər. 12 Kalev dedi: «Kim
Qiryat-Seferə hücum edib oranı alarsa, qızım Ak-
sanı ona ərə verəcəyəm». 13 Oranı Kalevin kiçik
qardaşı Kenazın oğlu Otniel aldı. Kalev qızı Ak-
sanı arvad olaraq ona verdi. 14 Qız Otnielə ərə
gedəndə ərini atasından bir tarla yeri istəməyə sövq
etdi. Qız eşşəkdən düşəndə Kalev ona dedi: «Nə
istəyirsən?» 15 Aksa Kalevə dedi: «Mənə bir pay da
ver. Madam ki mənə Negev torpağını verdin, onda
su qaynaqlarını da ver». Kalev ona yuxarıdakı və
aşağıdakı su qaynaqlarını verdi.
16 Musanın Qenli qayınatasının nəslindən
olanlar Yəhudalılarla birgə Xurma şəhərindən *
çıxaraq Aradın cənubunda olan Yəhuda çölündə
xalqın arasında məskunlaşdılar. 17 Yəhudalılar
soydaşları Şimeonlularla birgə gedib Sefatda qalan
Kənanlıları qıraraq tamamilə məhv etdilər. O
şəhərin adı Xorma† adlandırıldı. 18 Yəhudalılar
Qəzzəni və bütün ərazisini, Aşqelonu və bütün
ərazisini, Eqronu və bütün ərazisini aldılar. 19 Rəbb
Yəhudalılarla idi. Yəhudalılar dağlıq bölgəsini ələ
keçirdilər. Vadi sakinlərini isə qova bilmədilər,
çünki onların dəmir döyüş arabaları var idi.
20 Musanın söylədiyi kimi Xevronu Kalevə verdilər.
O da Anaqın üç oğlunu oradan qovdu. 21 * Lakin
Binyamin övladları Yerusəlimdə qalan Yevusluları

---

* **1:16** Xurma şəhəri – Yerixo şəhəri. † **1:17** Xorma – ibrani dilində tamamilə yox etmək. * **1:21** Yeşua 15:63; 2Şam. 5:6; 1Saln. 11:4

qovmadılar və Yevuslular bu günə qədər Binyamin
övladları ilə birgə Yerusəlimdə yaşayırlar.
22 Yusif nəsli də Bet-Elə hücum etdi və Rəbb
onlarla idi. 23 Yusif nəsli Bet-Elə kəşfiyyata
adamlar göndərdi. Şəhərin əvvəlki adı Luz idi.
24 Kəşfiyyatçılar şəhərdən çıxan bir adamı görüb
dedilər: «Rica edirik, bizə şəhərə girmək üçün yol
göstərəsiniz və biz də sizinlə yaxşı rəftar edərik».
25 Bu adam onlara şəhərə girmək üçün yol göstərdi.
Onlar şəhərə girib əhalisini qılıncdan keçirdilər,
lakin həmin adama və qohumlarına dəymədilər.
26 Bu adam Xetlilərin torpağına getdi və orada bir
şəhər salıb adını Luz qoydu. Oranın bu günə qədər
adı belədir.
27 * Menaşşe qəbiləsi Bet-Şeanla qəsəbələrinin
əhalisini, Taanakla qəsəbələrinin əhalisini, Dorla
qəsəbələrinin əhalisini, İvleamla qəsəbələrinin
əhalisini və Megiddo ilə qəsəbələrinin əhalisini
qovmadı. Kənanlılar bu ölkədə qalmaq iddiasını
etdi. 28 İsraillilər bu torpaqlarda möhkəmlənəndə
Kənanlıların üzərinə mükəlləfiyyət qoydular,
amma tamamilə qovmadılar.
29 * Efrayim qəbiləsi Gezerdə olan Kənanlıları
qovmadı. Bununla da Kənanlılar Gezerdə – onların
arasında yaşadı.
30 Zevulun qəbiləsi Qitron əhalisini və Nahalol
əhalisini qovmadı. Kənanlılar da onların arasında
qalıb mükəlləfiyyətçi oldular.
31 Aşer qəbiləsi Akko əhalisini, Sidon, Axlav,
Akziv, Xelba, Afeq və Rexov əhalisini qovmadı.

---

* **1:27** Yeşua 17:11-13 * **1:29** Yeşua 16:10

32 Aşerlilər bu ölkənin sakinləri olan Kənanlılar
arasında yaşadı və onları qovmadı.
33 Naftali qəbiləsi Bet-Şemeş və Bet-Anat əhalisini
qovmadı, bu ölkənin sakinləri olan Kənanlılar
arasında yaşadı. Bet-Şemeş və Bet-Anat əhalisi onlar üçün mükəlləfiyyətçi oldu.
34 Emorlular Dan övladlarını dağlıq bölgəsinə
köçməyə vadar etdi və onları vadiyə düşməyə
qoymadı. 35 Emorlular Har-Xeresdə, Ayyalonda
və Şaalvimdə qalıb orada yaşadı. Ancaq Yusif
nəsli qüvvətlənəndə Emorlular onlar üçün
mükəlləfiyyətçi oldu. 36 Emorluların sərhədi
Aqrabbim keçidindən – Seladan yuxarıya uzanırdı.

# 2

*İsrailin sədaqətsizliyi*

1 Rəbbin mələyi Qilqaldan Bokimə çıxdı və dedi:
«Sizi Mən Misirdən çıxararaq atalarınıza vəd etdiyim torpağa gətirib dedim ki, sizinlə olan əhdimi
heç vaxt pozmayacağam. 2 * Siz isə bu torpağın əhalisi ilə əhd bağlamayın və onların qurbangahlarını dağıdın. Lakin siz Mənim sözümə qulaq
asmadınız. Niyə belə etdiniz? 3 Buna görə də
Mən deyirəm: onları qarşınızdan qovmayacağam
və onlar sizə əngəl, allahları isə sizə tələ olacaq».
4 Rəbbin mələyi bu sözləri İsrail övladlarına söylədiyi
zaman xalq bərkdən ağlamağa başladı. 5 Ona görə
də o yerin adına Bokim * dedilər və orada Rəbbə
qurban təqdim etdilər.

---

* **2:2** Çıx. 34:12-13; Qanun. 7:2-5 * **2:5** Bokim – ibrani dilində ağlayanlar.

*Yeşuanın ölümü*

6 Yeşua xalqı yola salan zaman İsrail övladlarından
hər biri öz torpaq paylarına sahib olmaq üçün
getdi. 7 Yeşuanın bütün ömrü boyu Rəbbin İsrail
üçün etdiyi bütün böyük işləri görən və Yeşuadan
sonra sağ qalan ağsaqqalların bütün ömrü boyunca
xalq Rəbbə qulluq etdi. 8 Rəbbin qulu Nun oğlu
Yeşua yüz on yaşında vəfat etdi. 9 * Onu Qaaş
dağının şimalında, Efrayimin dağlıq bölgəsində olan
Timnat-Xeres adlı irs olan torpaq sahəsində dəfn
etdilər. 10 Yeşua ilə bir dövrdə yaşayan bütün nəsil də
ölüb atalarına qovuşdu. Bundan sonra Rəbbin İsrail
üçün etdiyi işləri bilməyən başqa bir nəsil törədi.

11 İsrail övladları Rəbbin gözündə pis olan işlər
görərək Baal bütlərinə qulluq etdilər. 12 Bununla
da onları Misir ölkəsindən çıxaran atalarının Allahı
Rəbbi atıb başqa allahlara – ətraflarında yaşayan
millətlərin allahlarına sitayiş edərək onlara səcdə
etdilər. Buna görə də Rəbbi qəzəbləndirdilər.
13 Onlar Rəbbi ataraq Baal və Aştoret bütlərinə
qulluq etdilər. 14 Rəbbin İsrailə qarşı qəzəbi
alovlandı və onları basqınçılara təslim etdi.
Basqınçılar da onları talan etdilər. Rəbb onları
ətraflarındakı düşmənlərə verdi. İsrail övladları isə
düşmən qabağında tab gətirə bilmədilər. 15 Harada
döyüşdülərsə, Rəbbin onlara dediyi və and içdiyi
kimi Rəbbin əli onların əleyhinə qalxdı. Bundan
İsraillilər pis vəziyyətə düşüb çox əziyyət çəkdilər.

16 Rəbb İsrail övladlarını talançıların əlindən
qurtarmaq üçün hakimlər yetirdi. 17 Lakin onlar

* **2:9** Yeşua 19:49-50

hakimlərə də qulaq asmadılar. Başqa allahlara
sitayiş etməklə Rəbbə xəyanət etdilər. Rəbbin
əmrlərinə itaət edən atalarına bənzəmədilər və
tezliklə ata-babaları gedən yoldan azdılar. [18] Rəbb
onlar üçün hakimlər yetirdi və Özü də hakimlərlə
oldu. Hakimlərin ömrü boyunca Rəbb İsrailliləri
düşmənlərin əlindən qurtarırdı. Ona görə ki
onları əzənlərin və sıxışdıranların üzündən nalə
çəkdikləri zaman Rəbbin xalqa rəhmi gəlirdi.
[19] Hər hansı hakim öləndən sonra xalq yenə
başqa allahlara sitayiş etməklə, onlara qulluq
edib səcdə etməklə atalarından daha betər olurdu.
Onlar bu əməllərindən, bu inadkarlıqlarından əl
çəkmədi. [20] Ona görə də Rəbbin İsraillilərə qarşı
qəzəbi alovlandı və dedi: «Madam ki bu millət
Mənim atalarına əmr etdiyim əhdi pozub sözümə
qulaq asmadı, [21] Mən də Yeşua vəfat edəndə bu
torpaqlarda saxladığı millətlərin heç birini daha
onların qarşısından qovmayacağam. [22] Ataları
kimi bu yolla gedib-getməyəcəklərini görmək
üçün İsrailliləri bu millətlər vasitəsilə sınaqdan
keçirəcəyəm». [23] Rəbb bu millətlərin həmin
torpaqlarda qalmasına izin verdi. Onları Yeşuaya
təslim etməyərək dərhal qovmadı.

# 3

### *Kənan torpağında qalan millətlər*

[1] Rəbb Kənan döyüşlərindən heç birini görməyən
İsrailliləri sınamaq istədi. [2] İsrail övladlarının
nəsillərindən əvvəldən döyüşə bilməyənlərin
hamısına döyüş təlimi vermək üçün Rəbbin ölkədə
saxladığı millətlər bunlar idi: [3] Beş Filişt ağası,

bütün Kənanlılar və Sidonlular, eləcə də Baal-
Xermon dağından Xamat keçidinə qədər Livan
dağlarında yaşayan Xivlilər. 4 Onları orada Rəbb
ona görə saxladı ki, İsraillilləri sınasın və Musa
vasitəsilə atalarına verdiyi əmrlərə necə itaət edib-
etməyəcəklərini öyrənsin. 5 Beləliklə, İsrail övladları
Kənanlılar, Xetlilər, Emorlular, Perizlilər, Xivlilər
və Yevuslular arasında yaşadı. 6 İsrail övladları
onların qızlarından özlərinə arvad aldı, öz qızlarını
da onların oğullarına verdi və onların allahlarına
sitayiş etdi.

### *Birinci hakim Otniel*

7 Beləliklə, İsrail övladları Rəbbin gözündə pis olan
işlər gördülər. Onlar özlərinin Allahı Rəbbi un-
udaraq Baal və Aşera bütlərinə sitayiş etdilər. 8 Ona
görə də Rəbbin qəzəbi İsraillilərə qarşı alovlandı və
onları Aram-Naharayim padşahı Kuşan-Rişatayimə
təslim etdi. İsrail övladları səkkiz il Kuşan-Rişatayimə
tabe oldu. 9 İsrail övladları Rəbbə fəryad edəndə
Rəbb də onlar üçün bir xilaskar yetirdi. Xilaskar
Kalevin kiçik qardaşı olan Qenazın oğlu Otniel idi.
O, İsrail övladlarını əsarətdən xilas etdi. 10 Rəbbin
Ruhu Otnielin üzərinə endi. O, İsrailin hakimi oldu
və döyüşə çıxdı. Rəbb Aram-Naharayim padşahı
Kuşan-Rişatayimi Otnielə təslim etdi. O, Kuşan-
Rişatayimdən daha güclü oldu. 11 O dövrdə ölkə qırx
il rahat yaşadı. Sonra Qenazın oğlu Otniel öldü.

### *Ehudun hakimliyi*

12 İsrail övladları yenə də Rəbbin gözündə pis
olan işləri gördülər. Rəbb də Moav padşahı Eqlonu
İsraillilərə qarşı qaldıraraq qüvvətləndirdi. Çünki

onlar Rəbbin gözündə pis olan işləri görmüşdülər.
13 Moav padşahı Eqlon Ammon və Amaleq
övladlarını öz yanına toplayaraq İsraillilləri məğlub
edib Xurma şəhərini aldı. 14 Beləliklə, İsrail övladları
Moav padşahı Eqlona on səkkiz il tabe oldu.

15 Lakin İsrail övladları Rəbbə fəryad edəndə
Rəbb Binyaminli Geranın oğlu solaxay Ehudu bir
xilaskar kimi onlara yetirdi. İsrail övladları Moav
padşahı Eqlona Ehud vasitəsilə xərac göndərdi.
16 Ehud özünə uzunluğu bir qulac olan ikiağızlı
xəncər düzəltdi və onu paltarının altında sağ
buduna bağladı. 17 Ehud xəracı Moav padşahı
Eqlona təqdim etdi. Eqlon isə çox tosqun adam
idi. 18 Ehud xərac təqdimini bitirəndən sonra
hədiyyə gətirən adamları geri göndərdi. 19 Amma
özü Qilqalın yaxınlığındakı daş bütlərin yanından
geriyə qayıdıb padşaha dedi: «Ey padşah, sənə gizli
sözüm var». Padşah «sus» dedi. Onda yanında
dayanan adamların hamısı eşiyə çıxdılar.

20 Ehud onun yanına gəldi. Padşah üst
mərtəbədəki sərin otağında tənha qalırdı. Ehud
ona dedi: «Allahdan sənə bir sözüm var». Padşah
kürsüsündən qalxdı. 21 Ehud isə sol əlini uzadıb
sağ buduna bağladığı xəncəri çıxarıb padşahın
qarnına soxdu. 22 Xəncəri elə bərk vurmuşdu ki,
tiyənin ardınca qəbzəsi də onun qarnına girmişdi
və bağırsaqları yerə tökülmüşdü. Xəncərin tiyəsini
isə piy tutmuşdu, çünki Ehud xəncəri padşahın
qarnından çıxarmamışdı. 23 Ehud eyvana çıxıb
arxasınca yuxarıdakı otağın qapılarını örtüb
qıfılladı.

24 O çıxanda padşahın qulları gəlib baxdılar.

Yuxarı otağın qapısını qıfıllı görəndə dedilər:
«Yəqin padşah yuxarı otaqda ayaqyoluna gedir».
25 Padşahı gözlədilər, lakin otağın qapısını açan
olmadığına görə nigaran qaldılar. Sonra açar
götürüb qapıları açanda gördülər ki, ağalarının
meyiti yerə sərilib.

26 Onlar padşahı gözləyən zaman Ehud artıq
aradan çıxmış və daş bütlərin yanından keçib
Seiraya qaçmışdı. 27 O, İsrailə çatan kimi Efray-
imin dağlıq bölgəsində şeypur çaldı və İsrail övladları
onunla birgə dağlıq yerdən aşağı düşdülər. Ehud
onların qabağında gedirdi. 28 Ehud İsraillilərə
dedi: «Ardımca gəlin, çünki Rəbb düşmənimiz
olan Moavlıları sizə təslim etdi». İsrail övladları
da Ehudun ardınca enib Moavlılara qarşı bütün
İordan çayının keçidlərini bağladılar ki, heç kim
keçə bilməsin. 29 O zamankı döyüşdə Moavlılardan
on min nəfərə qədər qırıldı. Onların da hər biri
qüvvətli bir igid idi və heç kim canını qurtara
bilmədi. 30 Həmin gün Moav ölkəsi İsraillilərə tabe
oldu və İsrail ölkəsi səksən il rahat yaşadı.

### *Şamqarın hakimliyi*

31 Bundan sonra Anat oğlu Şamqar hakim oldu və
o, altı yüz Filiştlini öküz payası ilə qıraraq İsraili xilas
etdi.

# 4

### *Devora və Baraqın İsraili xilas etməsi*

1 Ehud öləndən sonra İsrail övladları yenə də
Rəbbin gözündə pis olan işlər gördülər. 2 Buna
görə də Rəbb onları Xasorda padşahlıq edən Kənan

padşahı Yavinə təslim etdi. Yavinin ordu başçısı
Sisra idi. O, Xaroşet-Haqqoyimdə yaşayırdı. 3 İsrail
övladları Rəbbə fəryad etdilər, çünki doqquz yüz
dəmir döyüş arabasına malik olan Yavin iyirmi il
idi ki, İsrail övladlarına zülm edib əziyyət verirdi.

4 O vaxtlar Lappidotun arvadı peyğəmbər
Devora İsraildə hakimlik edirdi. 5 Bu qadın
Efrayimin dağlıq bölgəsində Rama ilə Bet-El
arasında olan Devoranın xurma ağacı altında
yaşayırdı. İsrail övladları da hökm çıxarmaq üçün
onun yanına qalxırdılar. 6 Devora adam göndərib
Naftali bölgəsində Qedeş şəhərindən Avinoam
oğlu Baraqı çağırıb dedi: «İsrailin Allahı Rəbb
sənə əmr etdi ki, yanına Naftali və Zevulun
övladlarından on min nəfər kişini alıb Tavor dağına
aparasan. 7 Mən də Yavinin ordu başçısı Sisranı
və onun döyüş arabaları ilə əsgərlərini yolundan
döndərib Qişon çayına – sənin yanına gətirəcəyəm
və sənə təslim edəcəyəm». 8 Baraq Devoraya
dedi: «Əgər sən mənimlə bərabər getsən, mən
də gedəcəyəm, yox, əgər mənimlə bir getməsən,
mən də getməyəcəyəm». 9 Devora dedi: «Mən
mütləq səninlə bir gedəcəyəm, amma bunu da
bil ki, getdiyin yolun şöhrəti sənin olmayacaq,
çünki Rəbb Sisranı bir qadına təslim edəcək».
Devora ayağa qalxdı və Baraqla birgə Qedeşə
getdi. 10 Baraq Zevulun və Naftali övladlarını
Qedeşə topladı və on min nəfər kişi onun ardınca
getdi. Devora da Baraqla birgə yola düşdü.

11 Qenli Xever, Musanın qaynı Xovavın
nəslindən olan o biri Qenlilərdən ayrılmışdı. O,
Qedeş yaxınlığında, Saanayimdəki palıd ağacının

yanında öz çadırını qurmuşdu.

12 Sisraya xəbər çatdı ki, Avinoam oğlu Baraq
Tavor dağına çıxıb. 13 Sisra doqquz yüz dəmir
arabadan ibarət bütün döyüş arabalarını və
yanındakı bütün xalqı Xaroşet-Haqqoyimdən Qişon
çayına topladı. 14 Devora Baraqa dedi: «Qalx, çünki
Rəbbin Sisranı təslim etdiyi gün bu gündür. Sənin
qarşında gedən Rəbb deyilmi?» Baraq da arxasınca
gələn on min nəfər kişi ilə birgə Tavor dağından
endi. 15 Rəbb Sisranı və bütün döyüş arabaları ilə
ordusunu Baraqın qarşısında qılıncdan keçirərək
məğlub etdi. Sisra isə öz döyüş arabasından düşüb
qaçdı. 16 Baraq Xaroşet-Haqqoyimə qədər onların
döyüş arabaları ilə ordusunu qovdu. Sisranın
bütün ordusu qılıncdan keçirildi və heç kim sağ
qalmadı.

17 Sisra Qenli Xeverin arvadı Yaelin çadırına
qaçdı, çünki Xasor padşahı Yavinlə Qenli Xever
arasında sülh var idi. 18 Yael Sisranı qarşılamaq
üçün bayıra çıxıb dedi: «Gəl içəri, ağam, qorxma,
bizə gəl». Sisra onun çadırına girdi və qadın
onun üstünü kilimlə örtdü. 19 Sisra qadına dedi:
«Susamışam, rica edirəm, mənə bir içim su ver».
Qadın süd tuluğunu açıb ona süd içirtdi və üstünü
örtdü. 20 Sisra qadına dedi: «Çadırın qapısında
dayan, əgər bir adam gəlib səndən “Burada kimsə
varmı?” deyə soruşsa, deyərsən ki, yox». 21 Lakin
Xeverin arvadı Yael əlinə bir çadır payası və bir də
toxmaq götürüb yavaş-yavaş ona yaxınlaşdı. Sisra
isə çox yorulduğundan dərin yuxuya getmişdi. Yael
çadır payasını onun gicgahına zərblə elə vurdu
ki, paya onun başından keçib yerə girdi və Sisra

belə öldürüldü.
22 Bu vaxt Baraq Sisranın izinə düşmüşdü. Yael onun qarşısına çıxıb dedi: «Gəl, axtardığın adamı sənə göstərim». O, Yaellə birgə çadıra girəndə gördü ki, Sisra gicgahında paya ölüb yerə sərilmişdir.
23 Beləcə o gün Allah Kənan padşahı Yavini İsrail övladlarına tabe etdi.
24 İsrail övladlarının əli Kənan padşahı Yavinə qarşı get-gedə qüvvətləndi və axırda Kənan padşahı Yavini məhv etdi.

# 5

## *Devora ilə Baraqın ilahisi*

1 Həmin gün Devora və Avinoam oğlu Baraq bu ilahini oxudular:

2 Başçılar İsraildə rəhbərlik edəndə,
Xalq özünü könüllü təqdim edəndə
Rəbbə alqış edin!

3 Dinləyin, ey padşahlar! Qulaq asın, əmirlər!
Mən Rəbbi tərənnüm edəcəyəm,
İsrailin Allahı Rəbbə nəğmə söyləyəcəyəm!

4 * Ya Rəbb, Sən Seirdən çıxarkən,
Edom çölündən keçərkən
Yer titrədi, göylər damdı.
Bəli, buludlardan sular axdı.
5 Sina dağına sahib olan Rəbbin qarşısında,
İsrailin Allahı Rəbbin qarşısında
Dağlar titrədi.

---

* **5:4** Çıx. 19:18; Zəb. 68:7-8

6 Anat oğlu Şamqar zamanında,
Həm də Yael zamanında
Karvanlar buraya gəlişini kəsdi,
Səyyahlar dolanbac yollarla getdi.
7 Mən Devora ayağa qalxanadək,
İsraildə ana kimi meydana çıxanadək
İsraildə kəndlilər artıq yaşamırdı.
8 İsraillilər yeni allahlar seçərkən
Döyüşlər darvazalardan keçdi.
O zaman qırx min İsraillinin əlində
Nə nizə, nə də ki qalxan göründü.
9 Mənim könlüm İsrailə hökm edənlərlədir,
Xalq içində özünü könüllü təqdim edənlərlədir.
Rəbbə alqış edin!

10 Bu nəğməni söyləyin, ey ağappaq eşşəklərə minənlər,
Ey əlvan xalılar üstündə əyləşənlər,
Ey bütün yoldan keçənlər!

11 Oxatanların səs-küyündən uzaqda,
Su çəkənlər arasında –
Orada Rəbbin zəfərlərindən,
İsraildəki igidlərin zəfərlərindən nəql ediləcək.

O zaman Rəbbin xalqı darvazalara endi.
12 Oyan, ey Devora, oyan!
Oyan, ilahi oxu, oyan!
Ayağa qalx, ey Baraq!
Sən, ey Avinoam oğlu, gəl əsirlərini apar!

13 O zaman sağ qalanlar əyanların yanına endi.
Rəbbin xalqı cəngavər tək yanıma endi.

14 Amaleq soyundan olanlar Efrayimdən gəldi,
Sənin ardınca gələn xalq arasında Binyamin də var idi.
Makirdən əmirlər,
Zevulundan sərkərdə əsasını daşıyanlar gəldilər.
15 İssakardakı ağalar Devora ilə gəldilər.
İssakar necədirsə, Baraq da elə idi,
Onun ardınca vadiyə hücum çəkirdilər.

Ruven qəbiləsinin bölmələri çaşıb qalmışdı.
16 Çobanların sürülərinə çaldığı tütək səsini dinləmək üçün
Niyə ağıllar arasında qaldınız?
Ruven qəbiləsinin bölmələri çaşıb qalmışdı.
17 Gilead xalqı İordan çayının o tayında qaldı.
Bəs niyə Dan gəmilərin yanında sakin oldu?
Aşer dənizlərin sahilində qaldı,
Öz limanlarında məskən saldı.
18 Döyüş meydanının yüksək yerlərində, Zevulunla Naftali
Canlarını ölüm təhlükəsinə atan bir xalq oldu.

19 O zaman padşahlar gəlib vuruşdular.
Taanakda, Megiddo suları kənarında
Kənan padşahları vuruşdular.
Nə gümüş, nə də qənimət alan oldu.
20 Ulduzlar göydən döyüşdü,
Sisraya qarşı öz dövrəsində döyüşdülər.
21 Düşmənləri Qişon çayı apardı,
Qişon çayı coşub-daşandı.
Ey canım, sən qüvvətlə irəli get!

22 O zaman at dırnaqları vurdu o yerə damğalar,

Dördnala, dördnala qaçarkən köhlən atlar.

23 Rəbbin mələyi dedi: «Meroza lənət edin,
Onun xalqına ağır lənət söyləyin.
Çünki Rəbbin köməyinə,
Cəngavərlərə qarşı Rəbbin köməyinə gəlmədilər».

24 Qenli Xeverin arvadı Yael
Qadınlar arasında hamıdan artıq xeyir-dua alsın,
Çadırda yaşayan qadınlardan daha bəxtiyar olsun!
25 Su istəyəndə Sisra
Yael ona süd verdi.
Ağalara layiq bir camda ayran verdi.
26 Sol əlinə payanı,
Sağ əlinə isə işçi toxmağını götürdü,
Onlarla Sisranı vurdu, başını əzdi.
Sındırıb gicgahlarını, deşib yerə keçirtdi.
27 O yıxılıb ayaqlar altına sərildi,
Yerə döşəndi,
O yıxılıb ayaqlar altına sərildi,
Yıxıldığı yerə sərilib öldü.

28 Sisranın anası məhəccər arxasından,
Pəncərədən nigaran-nigaran baxıb çığırdı:
«Nə üçün onun döyüş arabası bu qədər gecikir?
Döyüş arabalarının səsi axı niyə ləngiyir?»
29 Müdrik əsilzadə xanımlar ona cavab verirdi,
O da öz-özünə təkrar-təkrar deyirdi:
30 «Bəlkə qənimət malını tapıb bölüşdürürlər,
Yəqin ki hər igidə bir-iki qız düşür.
Sisraya talan malından düşür əlvan geyimlər,
Bəli, talan malından naxışlı əlvan geyimlər.
Qarət etdiklərinin içindən tapıb bölüşdürdülər,

Talançıların boyunları üçün
İki tərəfdən əlvan naxışlı geyimlər».

31 Ya Rəbb, bütün düşmənlərin belə yox olur.
Amma səni sevənlər qüdrəti ilə doğan günəş kimi olur!

Bundan sonra ölkə qırx il rahat yaşadı.

# 6

*Rəbbin Gideona çağırışı*

1 İsrail övladları yenə də Rəbbin gözündə pis işlər
gördülər və Rəbb də onları yeddi il Midyanlılara
təslim etdi. 2 Midyanlıların güclü əli İsraillilərin
əleyhinə qalxdı və Midyanlıların üzündən İsrail
övladları özləri üçün dağlarda sığınacaq yerləri,
mağaralar və qalalar qurdular. 3 İsraillilər
əkin əkəndə Midyanlılar, Amaleqlilər və şərq
xalqları gəlib İsrailə hücum edirdi. 4 İsraildə
ordugah quraraq Qəzzəyə çatana qədər torpağın
məhsullarını məhv edirdilər. İstər qoyun, istər
öküz, istərsə də eşşək olsun, İsraillilərə dolanmaq
üçün heç nə qoymazdılar. 5 Çünki onlar öz
heyvanları və çadırları ilə çıxırdılar. Gələndə isə
çəyirtkə kimi o qədər çox gəlirdilər ki, nə özlərinin,
nə də dəvələrinin sayı-hesabı olmazdı. Onlar
İsraili viran qoymaq üçün gəlirdilər. 6 İsraillilər
Midyanlıların əlindən çox yoxsullaşdı. Ona görə də
İsrail övladları Rəbbə fəryad qopardı.

7 Midyanlıların əlindən İsrail övladları Rəbbə
fəryad edəndə 8 Rəbb İsrail övladlarına bir

peyğəmbər göndərdi. O, İsraillilərə belə dedi:
«İsrailin Allahı Rəbb belə deyir: "Mən sizi Misirdən
çıxardaraq köləlik diyarından qurtardım.
9 Sizi
Misirlilərin və bütün zülmkarların əlindən azad
edərək onları qarşınızdan qovdum və torpaqlarını
sizə verdim.
10 Sizə dedim ki, Allahınız Rəbb
Mənəm, torpağında yaşadığınız Emorluların
allahlarına sitayiş etməyin. Siz isə Mənim sözümə
qulaq asmadınız"».

11 Rəbbin mələyi gəlib Aviezerli Yoaşın Ofra
şəhərindəki palıd ağacının altında durdu. Yoaş
oğlu Gideon üzüm sıxılan yerdə Midyanlılardan
gizlətdiyi taxılı döyürdü.
12 Rəbbin mələyi
ona görünüb dedi: «Ey cəsur cəngavər, Rəbb
səninlədir».
13 Gideon dedi: «Ah mənim ağam,
əgər Rəbb bizimlədirsə, bəs bütün bu işlər
başımıza niyə gəldi? Atalarımız "Rəbb bizi
Misirdən çıxarmadımı?" deyərək danışdıqları
bütün möcüzələr görəsən indi harada qaldı? İndi
Rəbb bizi atmışdır, ona görə də bizi Midyanlılara
təslim edib».
14 Rəbb ona tərəf çevrilib dedi: «Bu
qüvvətinlə get, İsraili Midyanlıların əlindən qurtar.
Səni göndərən Mən deyiləmmi?»
15 Gideon ona
dedi: «Ey Xudavənd, İsraili mən necə qurtarım?
Mənim nəslim Menaşşe qəbiləsində ən zəif nəsildir,
mən də atamın evində ən kiçiyəm».
16 Rəbb ona
dedi: «Mən mütləq səninlə olacağam və sən də
Midyanlıların hamısını bir nəfər kimi qıracaqsan».
17 Gideon dedi: «Əgər indi Sənin gözündə lütf
tapmışamsa, mənə bir əlamət göstər, bilim ki,
mənimlə danışan Rəbdir.
18 Rica edirəm, mən
sənin yanına qurbanımı gətirib təqdim edənə

qədər buradan getmə». Rəbb Gideona dedi: «Sən
geri qayıdana qədər Mən burada gözləyirəm».
19 Gideon içəri girdi. Bir oğlaq kəsib bir efa
undan mayasız çörəklər bişirdi və əti səbətə qoydu,
ətin suyunu isə qazana tökdü. Sonra onları palıd
ağacının altına – Rəbbin yanına gətirib Ona təqdim
etdi. 20 Allahın mələyi ona dedi: «Əti və mayasız
çörəkləri götür, bu qayanın üstünə qoy və ətin
suyunu da oraya tök». Gideon belə də etdi.
21 Rəbbin mələyi əlində olan əsanın ucunu oraya
uzadıb ətlə mayasız çörəklərə toxunanda qayadan
alov çıxdı və ətlə mayasız çörəkləri udub yox etdi.
Sonra Rəbbin mələyi onun gözü önündəcə qeyb
oldu. 22 Gideon Onun Rəbbin mələyi olduğunu
anlayıb dedi: «Ay aman, ya Xudavənd Rəbb! Mən
Sənin mələyinin sifətini gördüm». 23 Rəbb ona dedi:
«Salamat qal, qorxma, ölməyəcəksən». 24 Gideon
orada Rəbbə bir qurbangah düzəltdi və onun adını
Yahve-Şalom * qoydu. Bu qurbangah bu günə
qədər Aviezerlilərin Ofra şəhərindədir.
25 Həmin gecə Rəbb Gideona dedi: «Get, atanın
ikinci yeddiillik buğasını götür. Sonra get,
atanın Baal bütünə düzəltdiyi qurbangahı dağıt
və yanındakı Aşera bütünü kəs. 26 Bu təpənin
başında Allahın Rəbbə layiq qurbangah düzəlt.
Sonra kəsdiyin Aşeranın ağac bütünə od vuraraq
götürdüyün ikinci buğanı yandırma qurbanı olaraq
təqdim et». 27 Gideon qulluqçularından on nəfəri
özü ilə götürüb Rəbbin tapşırdığı kimi etdi. Lakin
atasının ev xalqından və şəhər sakinlərindən
qorxduğu üçün işi gündüz deyil, gecə etdi.

* **6:24** Yahve-Şalom – ibrani dilində Rəbbin sülhü.

28 Şəhər sakinləri səhər tezdən qalxıb gördülər ki,
Baal qurbangahı tamamilə dağıdılıb və yanındakı
Aşera bütü kəsilib. Qurulan yeni qurbangah
üzərində isə ikinci buğa yandırma qurbanı olaraq
təqdim olunub. 29 Adamlar bunu görüb bir-
birlərinə dedilər: «Görəsən bu işi kim görüb?» On-
lar bunu araşdırandan sonra bildilər ki, bu işi görən
Yoaşın oğlu Gideondur. 30 Şəhər sakinləri Yoaşa
dedilər: «Oğlunu buraya gətir ki, öldürülsün. Çünki
o, Baalın qurbangahını dağıdıb, yanındakı Aşera
bütünü isə kəsib». 31 Yoaş ona qarşı çıxanların
hamısına belə dedi: «Bu Baal bütünün əvəzinə sizmi
mübarizə aparacaqsınız? Ya sizmi onu qurtara-
caqsınız? Baal üçün mübarizə aparan səhərə qədər
öləcək. Əgər o, həqiqətən, allahdırsa, onun qurban-
gahını dağıdan adamla qoy özü mübarizə aparsın».
32 Bundan sonra «qoy Baal onunla özü mübarizə
aparsın, çünki o, Baalın qurbangahını dağıdıb»
deyərək Gideonun adını Yerub-Baal † qoydular.

33 Bu vaxt bütün Midyanlılar, Amaleqlilər və şərq
xalqları bir yerə yığılaraq İordan çayını keçib İzreel
vadisində ordugah qurdular. 34 Gideonun üzərinə
Rəbbin Ruhu endi və o, şeypur çalıb Aviezerliləri
öz yanına yığdı. 35 O bütün Menaşşeyə qasidlər
göndərdi və onları da öz yanına yığdı. Sonra
Aşerə, Zevuluna və Naftaliyə qasid göndərdi. Onlar
qasidləri qarşılamağa çıxdılar.

36 Gideon Allaha dedi: «Söz verdiyin kimi
İsraili mənim əlimlə qurtaracaqsansa, 37 qoy mən
xırmanın üstünə qoyundan qırxılan yun qoyum.
Əgər şeh yalnız yunu isladarsa, torpaq isə quru

† **6:32** Yerub-Baal – ibrani dilində Baal mübarizə aparsın.

qalarsa, onda biləcəyəm ki, Sən dediyin kimi İsraili
mənim əlimlə qurtaracaqsan». 38 Belə də oldu.
Gideon ertəsi gün tezdən qalxıb yunu sıxdı. Yun-
dan bir kasa dolu su çıxartdı. 39 Sonra Gideon Al-
laha dedi: «Qoy mənə qarşı qəzəbin alovlanmasın,
yenə bir ricam var. Bu yunla bir də bu işi sınamaq
istəyirəm. İndi də qoy yalnız bu yun quru qalsın və
bütün yer şehlə islanmış olsun». 40 Allah o gecə belə
də etdi. Bütün torpaq şehə büründü, qırxılmış yun
isə quru qaldı.

# 7

*Gideonun Midyan üzərində qələbəsi*

1 Yerub-Baal, yəni Gideon və onunla bərabər
bütün xalq tezdən durub Xarod çeşməsinin başında
ordugah qurdu. Midyan ordugahı isə onların şimal
tərəfində More təpəsinin yanındakı vadidə idi.
2 Rəbb Gideona dedi: «Yanında olan xalqın sayı
çoxdur, ona görə Midyanlıları onlara təslim et-
mirəm. Çünki İsraillilər Mənim qarşımda "öz əlimlə
özümü qurtardım" deyib öyünəcək. 3 * İndi sən
xalqa bunu eşitdirib de: "Kim qorxudan əsirsə,
Gilead dağından geri qayıtsın"». Xalqdan iyirmi iki
min nəfəri geri qayıtdı, on min nəfəri qaldı.
4 Rəbb Gideona dedi: «Xalqın sayı yenə də
çoxdur, onları su kənarına endir və orada adamları
sənin üçün ələkdən keçirəcəyəm. "Bu səninlə
gedəcək" dediyim adam səninlə gedəcək və "bu
səninlə getməyəcək" dediyim bütün adamlar isə
getməyəcək». 5 Gideon xalqı su kənarına endirəndə
Rəbb ona dedi: «Suyu it kimi dili ilə içənlərin

* **7:3** Qanun. 20:8

hamısını bir tərəfə, su içmək üçün dizüstü otu-
ranların hamısını isə o biri tərəfə ayırıb yığarsan».
6 Əllərini ağızlarına aparıb suyu dili ilə içənlərin
sayı üç yüz nəfər oldu. Lakin xalqın qalan hissəsi
su içmək üçün dizüstü yerə oturdu. 7 Rəbb Gideona
dedi: «Sizi dili ilə su içən bu üç yüz nəfərlə qurtara-
cağam və Midyanlıları sənə təslim edəcəyəm. Qoy
xalqın qalan hissəsi öz yerinə qayıtsın». 8 Bu üç
yüz adam xalqın azuqəsini və şeypurlarını əlindən
aldı. Gideon qalan İsraillilərin hamısını bir nəfər
kimi öz evlərinə göndərdi və üç yüz nəfəri yanında
saxladı. Midyan ordugahı Gideonun olduğu yerin
aşağısındakı vadidə idi.

9 O gecə Rəbb ona dedi: «Qalx, Midyan
ordugahına en, çünki onları sənə təslim edirəm.
10 Əgər ordugaha enməyə qorxursansa, nökərin
Pura ilə bərabər en. 11 Orada sən onların söhbətini
eşidəcəksən, onda qüvvət alıb ordugaha enərsən».
O zaman Gideon və nökəri Pura ordugahın
kənarında olan silahlı adamların yanına endilər.
12 Vadiyə yığılan Midyanlılar, Amaleqlilər və
bütün şərq xalqlarının sayı çəyirtkə qədər çox
idi. Dəvələrinin isə dəniz sahilindəki qum qədər
sayı-hesabı yox idi. 13 Gideon gəlib gördü ki,
bir nəfər yoldaşına öz yuxusunu danışır və belə
deyir: «Bax yuxumda görmüşəm ki, arpa unundan
bişirilmiş bir yumru çörək yuvarlanaraq Midyan
ordugahına girib çadıra çatdı, çadırı vurub yıxaraq
alt-üst etdi və çadır yerə sərildi». 14 Yoldaşı ona
cavab verdi: «Bu İsrailli Yoaş oğlu Gideonun
qılıncından başqa bir şey deyil. Allah Midyanı
və bütün ordugahını ona təslim edib».

15 Gideon yuxu danışan adamın hekayəsini və
yozumunu eşidəndə Allaha səcdə qıldı və İsrail or-
dugahına qayıdıb dedi: «Qalxın, çünki Rəbb Midyan
ordusunu bizə təslim edib». 16 Yanında olan üç
yüz nəfəri üç dəstəyə ayırdı. Hamısının əlinə
şeypurlar, boş dolçalar və dolçanın içində məşəllər
verdi. 17 Onlara tapşırdı ki, «mənə baxın, mən
necə edirəmsə, siz də elə edin. Bax mən or-
dugahın kənarına çatan zaman nə etsəm, siz də elə
edin. 18 Mən və mənimlə bərabər olanların hamısı
şeypur çalan kimi siz də ordugahın bütün ətrafında
şeypurlarınızı çalın və "Rəbb üçün və Gideon üçün!"
deyə bağırın».

19 Gideonla yanında olan yüz nəfər kişi orta
növbəsinin başlanğıcında * – növbətçilər təzə
dəyişən zaman ordugahın kənarına çatdılar. Onlar
şeypurlarını çalıb əllərindəki dolçaları qırdılar. 20 Üç
dəstə də şeypur çalıb dolçaları qırdı, sol əllərində
məşəl, sağ əllərində isə çaldıqları şeypuru tutub
«Rəbbin və Gideonun qılıncı!» deyə bağırdılar.
21 Ordugahın ətrafında hamı öz yerində dayandı
və bütün Midyan ordusuna vurnuxma düşdü.
Onlar bağıra-bağıra qaçdılar. 22 Üç yüz nəfər şeypur
çalanda Rəbb düşmən ordugahındakıların qılıncını
bir-birinə qarşı qaldırdı. Düşmən ordusu Sereraya
doğru – Bet-Şittaya qədər, Tabbatın yanında olan
Avel-Mexola sərhədinə qədər qaçdı. 23 Naftalidən,
Aşerdən və bütün Menaşşedən çağırılmış İsraillilər
Midyanlıları qovdular.

24 Gideon bütün Efrayimin dağlıq bölgəsinə

* **7:19** Orta növbəsinin başlanğıcı – yəni axşam saat 10-a yaxın.

qasid göndərib dedi: «Enin, Midyanlılara hücuma
keçin. Onların yolunu kəsmək üçün Bet-Baraya
qədər İordan çayının sularını tutun». Bütün
Efrayimlilər yığılıb Bet-Baraya qədər İordan çayının
sularını tutdular. 25 Sonra iki Midyan başçısı
Orevlə Zeevi tutdular. Orevi Orev qayasında, Zeevi
isə Zeev üzümsıxanında öldürdülər. Midyanlıları
qovdular və İordan çayını keçərək Orevlə Zeevin
başlarını Gideona gətirdilər.

# 8

*Efrayimin qısqanclığı*

1 Efrayimlilər Gideona dedilər: «Bu nə işdir
başımıza gətirdin? Midyanlılarla döyüşə gedəndə
niyə bizi çağırmadın?» Bundan ötrü onunla kəskin
mübahisə etdilər. 2 Gideon onlara dedi: «Axı
sizin gördüyünüz işlərin yanında indi gördüyüm
bu iş nədir ki? Efrayimin üzüm başaqları Aviez-
erin üzüm bağının məhsullarından yaxşı deyilmi?
3 Midyan başçıları olan, Orevi və Zeevi Allah sizə
təslim etdi. Axı sizin gördüyünüz işlərin yanında
mən nə edə bilmişəm?» Bunu deyəndən sonra
Efrayimlilərin ona olan qəzəbi yatdı.

4 Gideon İordan çayına çatdı, özü və yanındakı
üç yüz nəfərlə bərabər çayı keçdilər. Onlar
yorulmaqlarına baxmayaraq düşmənləri təqib
etməkdə davam edirdilər. 5 O gəlib Sukkot
adamlarının yanına çataraq dedi: «Rica edirəm,
arxamca gələn adamlara bir parça çörək verin,
çünki taqətdən düşüblər. Mən isə Midyan padşahları
Zevah və Salmunnanın ardınca qaçıram». 6 Sukkot
başçıları ona dedilər: «Zevah və Salmunnanın

biləyi indi sənin əlindədir ki, sənin döyüşçülərinə
çörək verək?» 7 Gideon onlara dedi: «Elə buna
görə sizə deyirəm ki, Rəbb Zevah və Salmunnanı
mənə təslim edəndə çölün tikanları və kolları ilə
ətinizi didəcəyəm». 8 Oradan gəlib Penuelə çıxdı və
oradakılardan da eyni şeyi istədi. Sukkot sakinləri
necə ona cavab vermişdilərsə, Penuel sakinləri də
ona elə cavab verdilər. 9 Gideon Penuel sakinlərinə
isə belə dedi: «Sağ-salamat geriyə qayıtdığım zaman
bu qülləni dağıdacağam».
10 Zevahla Salmunna və bütün şərq xalqlarının
ordusundan sağ qalan təxminən on beş min
nəfərlik bir ordu Qarqorda idi. Onların or-
dusundan yüz iyirmi min qılınc gəzdirən adam
yerə sərilmişdi. 11 Gideon Novah və Yoqbohanın
şərqindən – köçərilərin yolundan keçərək laqeyd
dayanan düşmən ordugahına hücum etdi. 12 Zevah
və Salmunna qaçdı. Gideon isə onları təqib etdi. O,
Midyanın iki padşahı Zevahla Salmunnanı tutub
bütün ordunu məğlub etdi.
13 Yoaş oğlu Gideon Xeres keçidi ilə döyüşdən
qayıtdı. 14 Sukkot sakinlərindən bir cavanı tutub
ondan söz aldı. O da ona Sukkot başçısı olan yet-
miş yeddi ağsaqqalın adını yazıb verdi. 15 Gideon
Sukkot sakinlərinin yanına gəlib dedi: «“Zevah
və Salmunnanın biləyi sənin əlindədir ki, sənin
yorğun adamlarına çörək verək?” deyərək məni
ələ salırdınız. Budur, bu da Zevah və Salmunna!»
16 Sonra o, şəhər ağsaqqallarını topladı və Sukkot
sakinlərini çöl tikanları və kollarla döyərək tənbeh
etdi. 17 Bundan sonra da gəlib Penuel qülləsini
dağıtdı və şəhərin sakinlərini qırdı.
18 Gideon Zevah ilə Salmunnaya dedi: «Tavorda

öldürdüyünüz adamlar necə adamlar idi?» Onlar
dedilər: «Hamısı sənin kimi padşah oğullarına
oxşayırdı». 19 Gideon dedi: «Onlar mənim
qardaşlarım, anamın oğulları idi. Var olan
Rəbb haqqı, əgər siz onları sağ buraxsaydınız,
mən də sizi öldürməzdim». 20 İlk oğlu Yeterə
dedi: «Qalx onları öldür». Lakin oğlan qılıncını
çəkmədi, çünki hələ cavan olduğuna görə qorxurdu.
21 Zevah və Salmunna dedilər: «Dur, bizi sən vur,
çünki kişi güclü olar». Gideon qalxıb Zevahla
Salmunnanı öldürdü və sonra onların dəvələrinin
boyunlarından asılan ayparalarını götürdü.

## *Gideonun efodu*

22 İsraillilər Gideona dedilər: «Sən, oğlun və
nəvən bizə hakimlik edin. Çünki bizi Midyanın
əlindən sən qurtardın». 23 Gideon onlara dedi:
«Nə mən sizin üstünüzdə hakimlik edəcəyəm, nə də
oğlum. Sizə hökmranlığı Rəbb edəcək». 24 Sonra
Gideon onlara dedi: «Ancaq sizdən bir ricam var
ki, götürdüyünüz talan malından hər kəs mənə bir
sırğa versin». Çünki düşmənlər İsmailli olduqları
üçün qızıl sırğa taxırdılar. 25 Onlar Gideona dedilər:
«Bunu məmnuniyyətlə verərik». Onlar yerə bir
paltar sərdilər və hamı talan malından götürdüyü
sırğaları bu paltarın üstünə atdı. 26 Ayparalardan,
boyunbağılardan, Midyan padşahlarının əynindəki
tünd qırmızı paltarlardan və dəvələrin boynundakı
zəncirlərdən əlavə bu qızıl sırğaların çəkisi min
yeddi yüz şekel gəlirdi. 27 Gideon onlardan bir efod
düzəltdi və onu öz şəhərində Ofrada qoydu. Bun-
dan sonra bütün İsraillilər orada bu efoda səcdə
etməklə Rəbbə xəyanət etdilər. Bu efod Gideon

və onun külfəti üçün tələ oldu. 28 Midyanlılar
İsrail övladlarına tabe olub bir daha başlarını qaldıra
bilmədilər. Gideonun dövründə ölkə qırx il rahat
yaşadı.

### Gideonun, yəni Yerub-Baalın ölümü

29 Yoaş oğlu Yerub-Baal qayıdıb yenə öz evində
yaşadı. 30 Onun belindən gələn yetmiş oğlu var idi,
çünki arvadı çox idi. 31 Şekemdə olan cariyəsi də ona
bir oğul doğdu və Yerub-Baal onun adını Avimelek
qoydu. 32 Yoaş oğlu Gideon uzun və yaxşı ömür
sürüb öldü. O, Aviezerlilərin Orfa şəhərində atası
Yoaşın məqbərəsində dəfn olundu.

33 Gideonun vəfatından sonra İsrail övladları yenə
də Baal bütlərinə sitayiş edərək Rəbbə xəyanət
etdilər. Onlar Baal-Beriti özlərinə allah etdilər.
34 İsrail övladları ətraflarındakı bütün düşmənlərinin
əlindən onları azad edən özlərinin Allahı Rəbbi
yada salmadılar. 35 Yerub-Baalın, yəni Gideonun
İsraillilərə etdiyi bütün xeyirxahlığın əvəzinə onun
nəsli ilə yaxşı rəftar etmədilər.

# 9

### Gideonun oğlu Avimelekin Şekemdə hökmranlığı

1 Yerub-Baalın oğlu Avimelek Şekemə, dayılarının
yanına getdi. Onlara və bütün ana nəslinə belə
dedi: 2 «Rica edirəm, bütün Şekem başçılarına bunu
eşitdirib deyin: “Sizin üçün hansı yaxşıdır, Yerub-
Baalın yetmiş oğlu sizə hakimlik etsin, yoxsa bir
nəfər? Unutmayın ki, mən sizin sümüyünüzdən
və ətinizdənəm”». 3 Dayıları onun söylədiyi bu
sözləri bütün Şekem əhalisinə çatdırdı. Bundan
sonra onların da könülləri Avimelekə meyl etdi

və «o bizim soydaşımızdır» dedilər. 4 Ona Baal-
Beritin ibadət evindən yetmiş şekel gümüş verdilər.
Avimelek isə özünə muzdla yaramaz və macəraçı
adamlar tutdu. Onlar Avimelekin ardınca getdilər.
5 Avimelek Ofraya – öz ata evinə gəldi və qar-
daşları Yerub-Baalın yetmiş oğlunu bir daş üstündə
öldürdü. Təkcə Yerub-Baalın kiçik oğlu Yotam sağ
qalmışdı, ona görə ki gizlənə bilmişdi. 6 Bütün
Şekem və Bet-Millo əhalisi toplaşaraq gedib Şekemdə
daş sütunun yanındakı palıd ağacının yaxınlığında
Avimeleki padşah elan etdi.

7 Bu xəbər Yotama çatanda o gedib Gerizim
dağının təpəsində durdu və bərkdən çığırıb onlara
belə dedi: «Ey Şekem sakinləri, məni dinləyin ki,
Allah da sizi dinləsin. 8 Günlərin bir günündə bütün
ağaclar özləri üçün padşah məsh etməkdən ötrü
gedib zeytun ağacına dedilər: “Bizim padşahımız
ol”. 9 Zeytun ağacı dedi: “Allahın və insanın
şərəfi üçün məndən alınan yağı ataraq ağacların
üstündəmi sallanıb qalım?” 10 Sonra ağaclar əncir
ağacına dedilər: “Gəl sən bizə padşah ol”. 11 Əncir
ağacı onlara dedi: “Şirinliyimi və gözəl meyvələrimi
ataraq ağacların üstündəmi sallanıb qalım?” 12 Bu
dəfə ağaclar üzüm tənəyinə dedilər: “Gəl sən bizə
padşah ol”. 13 Üzüm tənəyi isə onlara dedi: “Allahı
və insanları sevindirən təzə şərablarımı ataraq
ağacların üstündəmi sallanıb qalım?” 14 Nəhayət,
bütün ağaclar gəlib yabanı göyəmə dedilər: “Gəl
sən bizə padşah ol”. 15 Yabanı göyəm dedi: “Əgər,
həqiqətən, siz məni özünüzə padşah olaraq məsh
edirsinizsə, gəlin mənim kölgəmə sığının. Belə
olmazsa, qoy yabanı göyəmdən alov çıxsın və Li-

vanın sidr ağaclarını yandırıb-yaxsın”.
16 Baxın Avimeleki padşah etməkdə haqq niyyət
və doğruluqla iş gördünüzmü? Siz Yerub-Baala
və onun nəslinə qarşı yaxşı iş gördünüzmü?
Münasibətiniz atama layiqdirmi? 17 Axı atam
sizin üçün döyüşdü və öz canını təhlükəyə atıb
sizi Midyanın əlindən qurtardı. 18 Siz isə bu gün
atamın nəslinin əleyhinə çıxıb yetmiş oğlunu bir
daş üstündə öldürdünüz və sonra cariyəsindən
olan oğlu Avimeleki Şekem əhalisinin padşahı
etdiniz, çünki o sizin soydaşınızdır. 19 Əgər bu gün
Yerub-Baalla onun nəsli üçün haqq niyyətlə və
doğruluqla rəftar etdinizsə, onda bu Avimeleklə
sevinin və qoy o da sizinlə sevinsin. 20 Yoxsa qoy
Avimelekdən alov çıxıb Şekem başçılarını və Bet-
Millo əhalisini yox etsin, onlardan da od çıxıb
Avimeleki yox etsin». 21 Yotam qaçıb aradan çıxdı
və Beerə getdi. Qardaşı Avimelekdən qorxduğu
üçün orada qaldı.

### *Şekemlə Avimelek arasında münaqişə*

22 Avimelek üç il İsrail üzərində başçılıq etdi.
23 Sonra Allahın izni ilə Avimeleklə Şekem
əhalisinin arasına şər ruh girdi və onlar Avimelekə
xəyanətlə yanaşdılar. 24 Bu ona görə baş verdi
ki, həm Avimelek Yerub-Baalın yetmiş oğluna
qarşı etdiyi günahın cəzasını çəksin, həm də
Avimelekdən və onu bu qətlə sövq edən Şekem
əhalisindən tökdükləri qanların qisası alınsın.
25 Şekem əhalisi dağların başında Avimelekə qarşı
pusqu qurub yolda yanlarından keçənlərin
hamısını soyurdular. Bunu Avimelekə xəbər
verdilər.

26 Evedin oğlu Qaal və qardaşları gəlib Şekemdə
məskunlaşdılar. Şekem əhalisi də ona etimad
göstərdi. 27 Onlar çölə, bağlara gedib üzüm yığdılar.
Sonra bu üzümləri əzib şənlik qurdular və öz
allahlarının ibadətgahına gedərək yeyib-içib
Avimelekə lənət oxudular. 28 Eved oğlu Qaal
dedi: «Avimelek kimdir ki, biz Şekem sakinləri
ona xidmət edək? Yerub-Baalın oğlu deyilmi?
Onun müavini də Zevul deyilmi? Gəlin Şekemin
atası Xamorun adamlarına xidmət edin! Axı nəyə
görə biz Avimelekə xidmət etməliyik? 29 Kaş bu
xalq mənim əlimdə olaydı! O zaman Avimeleki
qovardım». Sonra Qaal Avimelekə dedi: «Ordunu
yığ, meydana çıx!»

30 Şəhər başçısı Zevul Evedin oğlu Qaalın bu
sözlərini eşidəndə qəzəbdən alışıb yandı. 31 Hiylə
işlədərək Avimelekin yanına qasidlər göndərib
dedi: «Budur, Eved oğlu Qaal ilə qardaşları Şekemə
gəlib şəhəri sənin əleyhinə qaldırırlar. 32 İndi sən və
adamların bu gecə qalxıb çöldə pusquda durun.
33 Səhər açılanda günəş doğar-doğmaz qalxıb şəhərə
hücum edərsən. Bax Qaal ilə adamları sənə qarşı
çıxarkən əlindən gələni et».

34 Avimeleklə adamları gecə ikən qalxdılar və
dörd dəstə olub Şekemin yaxınlığında pusquda
durdular. 35 Eved oğlu Qaal çıxıb şəhər
darvazasının giriş yerində duranda Avimelek
və adamları pusqudan çıxdılar. 36 Qaal onları
görüb Zevula dedi: «Bax dağların təpəsindən bir
dəstə xalq enir». Zevul ona dedi: «Gördüyün
dağların kölgəsidir, adamlara oxşadırsan». 37 Qaal
sözünə davam edərək dedi: «Bax ölkənin orta

hissəsindən xalq enir. Gələcəyideyənlər palıdı
yolundan da bir dəstə gəlir». 38 O zaman Zevul
ona dedi: «“Avimelek kimdir ki, biz ona xidmət
edək” deyə lovğalanan dilin haradadır? Həqarətlə
baxdığın xalq bu xalq deyilmi? İndi meydana çıx,
onunla döyüş». 39 Qaal Şekem əhalisinin qabağına
çıxıb Avimeleklə döyüşdü. 40 Avimelek onu qovdu,
Qaal onun qabağından qaçdı. Adamların çoxu
yaralanaraq darvazanın giriş yerinə qədər yerə
sərildi. 41 Avimelek Arumada yaşadı. Zevul isə
Qaal ilə qardaşlarını Şekemdə yaşamağa qoymayıb
qovdu.

42 Ertəsi gün Şekem xalqı çölə çıxanda bu barədə
Avimelekə xəbər verildi. 43 O, ordusunu götürüb üç
dəstəyə ayırdı və onlar çöldə pusqu qurub güddülər.
Avimelek xalqın şəhərdən çıxdığını görəndə qalxıb
hücuma keçdi. 44 Avimeleklə dəstəsi cəld irəli
keçərək şəhər darvazasının girişində dayandılar. O
biri iki dəstə isə çöldəki xalqın üstünə düşüb onları
qırdı. 45 Avimelek bütün günü şəhərə hücum edərək
şəhəri aldı. Orada olan adamları qırdı, şəhəri viran
edib yerinə duz əkdi.

46 Şekemin qülləsindəki adamlar bunu
eşidəndə El-Berit məbədinin qalasına girdilər.
47 Bütün Şekem qülləsindəkilərin oraya yığıldığını
Avimelekə xəbər verdilər. 48 Avimelek bütün
adamları ilə bərabər Salmon dağına çıxdı. Əlinə
balta götürüb ağacdan bir budaq kəsdi və onu
çiyinlərinin üstünə qoyub yanındakı xalqa belə
dedi: «Cəld olun, mən necə edirəmsə, siz də elə
edin». 49 Bütün xalq bir-bir budaqları kəsərək
Avimelekin arxasınca getdi və budaqları qalanın
ətrafında qoyub od vurdu. Şekem qülləsindəki

adamlardan minə qədər kişi və qadın yanaraq
öldü.
50 Avimelek Tevesə getdi və oranı mühasirə edib
aldı. 51 Şəhərin ortasında möhkəm bir qüllə var idi.
Bütün şəhər əhalisi – kişi və qadınlar qülləyə qaçaraq
qapını arxalarınca bağlayıb qüllənin başına çıxdılar.
52 Avimelek gəlib qülləyə hücum etdi. Oraya od
vurmaq üçün qüllənin qapısına yaxınlaşdı. 53 Onda
bir qadın dəyirmanın üst daşını Avimelekin başına
tullayaraq kəlləsini əzdi. 54 Avimelek tez silah
daşıyan gənc nökərini çağırıb dedi: «Çək qılıncını,
məni öldür. Qoy mənim üçün deməsinlər ki, onu
bir arvad öldürdü». Nökər qılıncı ilə onu vuranda
Avimelek öldü. 55 İsraillilər görəndə ki Avimelek
ölüb, hamısı öz yerinə qayıtdı. 56 Bununla da Allah
Avimelekin yetmiş qardaşını öldürməklə atasına
etdiyi pisliyi öz başına gətirdi. 57 Allah Şekem
əhalisinin də bütün pisliyini öz başlarına gətirdi.
Yerub-Baalın oğlu Yotamın lənəti onların üstünə
düşdü.

# 10

## *Tolanın hakimliyi*

1 Avimelekdən sonra İsraili xilas etmək üçün
İssakar qəbiləsindən olan Dodo oğlu Pua oğlu Tola
adlı bir adam çıxdı. O, Efrayimin dağlıq bölgəsində
Şamirdə yaşayırdı. 2 İsraildə Tola iyirmi üç il hakim-
lik edəndən sonra öldü və Şamirdə dəfn olundu.

## *Yairin hakimliyi*

3 Bundan sonra Gileadlı Yair çıxıb iyirmi iki il
İsraildə hakimlik etdi. 4 Onun otuz sıpaya minən

otuz oğlu və oğlanlarının da otuz şəhəri var idi.
Gilead bölgəsində olan bu şəhərlərə bu günə qədər
Xavvot-Yair deyilir. * 5 Yair öldü və Qamonda dəfn
olundu.

*İsraillilərin Ammonlulara və Filiştlilərə təslim edilməsi*

6 İsrail övladları yenə də Rəbbin gözündə pis
olan işlər görərək Baal və Aştoret bütlərinə, Aram
allahlarına, Sidon allahlarına, Moav allahlarına,
Ammon övladlarının allahlarına, Filiştlilərin al-
lahlarına qulluq edərək Rəbbi atdılar və Ona qulluq
etmədilər. 7 Buna görə də İsraillilərə qarşı Rəbbin
qəzəbi alovlandı və onları Filiştlilərə, Ammon
övladlarına təslim etdi. 8 Bu dövrdə onlar İsrailliləri
sıxışdırıb əzdilər. Onlar on səkkiz il İordan çayının
o tayında Gileaddakı Emorlular diyarında olan
bütün İsrail övladlarını əzdilər. 9 Ammon övladları
hətta Yəhuda, Binyamin, Efrayim qəbilələrinə
qarşı döyüşmək üçün İordan çayını keçirdilər. Buna
görə İsraillilər çox əziyyət çəkirdi.

10 * İsrail övladları Rəbbə fəryad edib dedilər:
«Sənə qarşı günah etmişik, çünki Allahımızı atıb
Baal bütlərinə qulluq etmişik».

11 Rəbb İsrail övladlarına dedi: «Sizi Misirlilərdən,
Emorlulardan, Ammon övladlarından və
Filiştlilərdən Mən qurtarmadımmı? 12 Sidonlular,
Amaleqlilər, Maonlular sizi sıxışdıranda da Mənə
fəryad etdiniz və sizi onların əlindən qurtaran
Mən deyildimmi? 13 Amma siz Məni atıb başqa
allahlara qulluq etdiniz, buna görə də bir daha sizi

* **10:4** Xavvot-Yair – ibrani dilində Yairin qəsəbələri. * **10:10** 1Şam. 12:10

qurtarmayacağam. 14 Gedin seçdiyiniz allahlara
fəryad edin, qoy bu əzablı vaxtınızda onlar sizi
qurtarsınlar». 15 İsrail övladları Rəbbə dedilər:
«Günah etmişik. Gözündə nə xoş görünürsə, onu
bizə et. Yalvarırıq bu gün bizi qurtar». 16 Onlar
aralarından yad allahları atdılar və Rəbbə qulluq
etdilər. Rəbb İsraillilərin bu əzabına artıq dözə
bilmədi.
17 Ammon övladları yığılıb Gileadda ordugah
qurdular. İsrail övladları isə toplanıb Mispada or-
dugah qurdular. 18 Xalq və Gilead başçıları bir-
birlərinə dedilər: «Kim Ammon övladlarına qarşı
döyüşə başlasa, o adam bütün Gilead əhalisinə
rəhbər olacaq».

# 11

### *İftahın hakimliyi*

1 Bir fahişədən doğulan Gileadlı İftah igid
döyüşçü idi. Onun atası Gilead idi. 2 Gileadın
arvadı ona oğullar doğdu və bu qadının oğulları
böyüyən zaman İftahı qovub belə dedilər:
«Atamızın evindən sənə miras düşmür, ona görə ki
sən başqa qadının oğlusan». 3 İftah qardaşlarının
yanından qaçıb Tov diyarında yaşadı. İftahın
başına macəraçı adamlar yığıldı və onunla birgə
basqınçılıq edirdilər.
4 Bir müddətdən sonra Ammon övladları
İsraillilərə qarşı döyüşə çıxdılar. 5 Ammon övladları
İsraillilərə qarşı çıxan zaman Gilead ağsaqqalları
İftahı Tov diyarından gətirmək üçün onun yanına
getdilər. 6 Onlar İftaha dedilər: «Gəl bizə sərkərdəlik

et və Ammon övladlarına qarşı birgə vuruşaq».
7 İftah Gilead ağsaqqallarına dedi: «Mənə nifrət edib
atamın evindən məni qovan siz deyildinizmi?
Bəs indi niyə çətinliyə düşəndə mənim yanıma
gəlmisiniz?» 8 Gilead ağsaqqalları İftaha dedilər:
«Sənin yanına ona görə gəlmişik ki, indi sən bizimlə
gedib Ammon övladlarına qarşı döyüşəsən və
bizə – bütün Gilead əhalisinə sərkərdə olasan».
9 İftah Gilead ağsaqqallarına dedi: «Yaxşı, Ammon
övladlarına qarşı döyüşmək üçün məni geri
aparırsınız. Bəs Rəbb qarşımda onları mənə təslim
edəndə sizin başçınız mən olacağammı?» 10 Gilead
ağsaqqalları İftaha dedilər: «Səninlə bizim aramızda
qoy Rəbb şahid olsun! Biz mütləq sənin sözünə əməl
edəcəyik». 11 İftah Gilead ağsaqqalları ilə bərabər
getdi və xalq da onu özünə başçı – sərkərdə etdi.
İftah Mispada, Rəbbin önündə bütün şərtlərini
təkrar etdi.

12 Bundan sonra Ammon padşahının yanına
qasidlər göndərib dedi: «Bizim aramızda nə olub
ki, torpağımda mənimlə vuruşmağa gəlmisiniz?»
13 Ammon padşahı İftahın qasidlərinə dedi: «Ona
görə ki İsraillilər Misirdən çıxan zaman mənim
torpaqlarımı Arnondan Yabboq və İordan çaylarına
qədər alıb. Gəlin onları mənə sülh yolu ilə geri
qaytarın». 14 İftah yenə də Ammon xalqının
padşahının yanına qasidlər göndərib dedi: 15 İftah
belə deyir: «İsraillilər Moav torpağını, Ammon
övladlarının torpağını almayıb. 16 Amma İsraillilər
Misirdən çıxanda Qırmızı dənizə qədər səhradan

keçərək Qadeşə gəlib və
17 * Edom padşahının
yanına qasidlər göndərib belə demişdilər: "Rica
edib torpağından keçmək üçün səndən izin
istəyirəm". Lakin Edom padşahı onlara qulaq
asmadı və sonra İsraillilər Moav padşahının yanına
adamlar göndərdi, o da razı olmadı. Ona görə də
İsraillilər Qadeşdə qalmışdılar.
18 * İsraillilər səhra
ilə gedib Edomla Moav torpaqlarının ətrafından
keçərək Moav ölkəsinin şərqinə çatdı və Arnon
vadisinin o biri tərəfində düşərgə saldılar. Lakin
Moavın sərhədini keçmədilər, ona görə ki Arnon
Moavın sərhədi idi.
19 * İsraillilər Emorluların
padşahı – Xeşbon padşahı Sixonun yanına qasidlər
göndərib demişdi: "Rica edirik, öz ölkəmizə çatana
qədər sənin torpağından keçmək üçün bizə izin
verəsən".
20 Amma Sixon öz torpağını yol keçmək
üçün İsraillilərə etibar etmədi və bütün xalqını
toplayaraq Yahsada ordugah qurub İsraillilərə
qarşı döyüşdü.
21 İsrailin Allahı Rəbb Sixonu və
onun bütün xalqını İsraillilərə təslim edəndə onları
məğlub etdilər. Beləliklə, İsraillilər o yerdə yaşayan
Emorluların torpağını irs olaraq aldı.
22 Arnondan
Yabboq çayına qədər, səhradan İordan çayına qədər
bütün Emor torpaqlarını İsraillilər irs olaraq aldı.

23 İndi İsrailin Allahı Rəbb Öz xalqı İsraillilərin
qarşısından Emorluları qovandan sonra sənmi bu-
raya sahib çıxacaqsan?
24 Allahın Kemoşun sənə
verdiyi torpağı özünə irs etməzsənmi? Biz də Al-
lahımız Rəbbin bizə verdiyi torpağı özümüzə irs

* **11:17** Say. 20:14-21 * **11:18** Say. 21:4 * **11:19** Say. 21:21-24

edəcəyik. 25 * İndi sənin Moav padşahı Sippor
oğlu Balaqdan nəyin yaxşıdır? Gör o, İsraillə heç
çəkişdimi? Yaxud onlara qarşı heç döyüşdümü?
26 Üç yüz il İsrail Xeşbon ilə Aroerdə, bunların ətraf
qəsəbələrində və Arnon vadisi boyunca yerləşən
bütün şəhərlərdə yaşadığı müddətdə niyə bu tor-
paqları geri almadınız? 27 Mən sənə qarşı günah
etmədim. Lakin sən mənə qarşı döyüşməklə mənə
pislik edirsən. Qoy hakim olan Rəbb bu gün İsrail
övladları ilə Ammon övladları arasında hökm etsin».
28 Lakin Ammon padşahı İftahın ona göndərdiyi
sözlərə qulaq asmadı.

29 İftahın üzərinə Rəbbin Ruhu endi. O, Gilead-
dan və Menaşşedən keçdi, sonra Gileaddakı Mis-
padan keçib Ammon övladlarının üstünə getdi.
30 İftah Rəbbə əhd edib dedi: «Əgər Ammon
övladlarını, həqiqətən, mənə təslim etsən, 31 o za-
man Ammon övladları ilə döyüşdən sağ-salamat
qayıdanda mənim evimin darvazasından qarşıma
birinci nə çıxarsa, Rəbbin olacaq və onu yandırma
qurbanı edəcəyəm». 32 İftah Ammon övladları ilə
döyüşə çıxdı. Rəbb də Ammon övladlarını İftaha
təslim etdi. 33 Aroerdən Minnitə çatana qədər
iyirmi şəhəri və Avel-Keramimə qədər Ammon
övladlarını çox böyük məğlubiyyətə uğratdı. Onlar
İsraillilərə tabe oldular.

34 İftah Mispaya, öz evinə qayıtdı. Budur, İftahın
qızı dəf çalıb oynayaraq onu qarşılamağa çıxdı. Bu
onun yeganə övladı idi, ondan başqa nə oğlu, nə
də qızı var idi. 35 * O, qızını görəndə paltarını

* **11:25** Say. 22:1-6 * **11:35** Say. 30:2

cırıb dedi: «Vay, qızım! Belimi əydin, qəddimi
əyənlərdən biri də sən oldun! Mən Rəbbə əhd
etmişəm, artıq sözümdən dönə bilmərəm». 36 Qızı
ona dedi: «Ata, sən Rəbbə əhd etmisən. Madam ki
Rəbb düşmənlərindən, Ammon övladlarından sənin
üçün qisas aldı, söz ağzından necə çıxıbsa, mənə
eləcə də et». 37 Sonra qız atasına dedi: «Ancaq
bu arzumu yerinə yetir: mənə iki ay izin ver,
qoy rəfiqələrimlə dağları gəzib-dolaşaraq öz nakam
qızlığım üçün ağlayım». 38 Atası ona «yaxşı, gedə
bilərsən» deyərək ona iki ay müddətinə izin verdi.
O da rəfiqələri ilə bərabər gedib dağlarda öz nakam
qızlığına ağladı. 39 İki ay keçəndən sonra atasının
yanına qayıtdı və atası onun barəsində etdiyi əhdi
yerinə yetirdi. Qız ərə getməmişdi. Bundan sonra
İsraildə belə bir adət oldu: 40 hər il İsrail qızları gedib
Gileadlı İftahın qızı üçün ildə dörd gün yas tutdular.

# 12

## *İftahla Efrayimlilərin münaqişəsi*

1 Efrayimlilər yığılaraq Safona gedib İftaha
dedilər: «Sən nəyə görə Ammon övladları ilə döyüşə
çıxıb bizi özünlə getməyə çağırmadın? Buna görə biz
səni də, evini də yandıracağıq». 2 İftah onlara dedi:
«Mən və xalqım Ammon övladları ilə ağır döyüşdə
olan vaxt sizi köməyə çağırdım, lakin siz gəlib məni
onların əlindən qurtarmadınız. 3 Mən də gördüm ki,
siz məni qurtarmırsınız, onda həyatımı təhlükəyə
atıb Ammon övladlarına qarşı özüm hücuma keçdim
və Rəbb onları mənə təslim etdi. Nə üçün bu
gün mənimlə davaya çıxmısınız?» 4 İftah bütün

Gileadlıları toplayıb Efrayimlilərlə döyüşdü və
Gileadlılar Efrayimliləri qırdılar, çünki Efrayimlilər
belə demişdilər: «Ey Efrayimlə Menaşşe arasında
yaşayan Gileadlılar, siz Efrayimdən qaçan
fərarilərsiniz!» 5 Gileadlılar Efrayimin qarşısındakı
İordan çayının keçidlərini tutdular. Əgər qaçıb
qurtulmaq istəyən Efrayimlilərdən biri gəlib «qoy
çayı keçim» deyərdisə, Gileadlılar ondan «sən
Efrayimlisənmi?» deyə soruşardılar. O «xeyr»
desəydi, 6 o zaman ona «bir "şibbolet" de görək»
deyərdilər. O da kəlməni doğru söyləyə bilməyib
«sibbolet» deyərdi. Onda Gileadlılar onu tutub
İordan çayının keçidlərində öldürərdi. Həmin dövrdə
Efrayimlilərdən qırx iki min nəfər qırıldı.

7 İftah altı il İsraildə hakimlik etdi. Sonra Gileadlı
İftah öldü və Gileadın bir şəhərində dəfn olundu.

### *İvsan, Elon və Avdonun hakimliyi*

8 Ondan sonra Bet-Lexemli İvsan İsraildə hakim-
lik etdi. 9 Onun otuz oğlu və otuz qızı var idi.
Qızlarını başqa nəsillərə ərə vermiş, oğullarına isə
başqa nəsillərdən otuz gəlin gətirmişdi. İvsan
İsraildə yeddi il hakimlik etdi. 10 Sonra İvsan öldü
və Bet-Lexemdə dəfn olundu.

11 Ondan sonra Zevulunlu Elon on il İsraildə
hakimlik etdi. 12 Zevulunlu Elon da öldü və Zevu-
lun torpağında, Ayyalonda dəfn olundu.

13 Ondan sonra Piratonlu Hillel oğlu Avdon
İsraildə hakimlik etdi. 14 Onun yetmiş sıpaya minən
qırx oğlu ilə otuz nəvəsi var idi və o, səkkiz il İsraildə
hakimlik etdi. 15 Piratonlu Hillel oğlu Avdon da

öldü və Amaleqlilərin dağlıq bölgəsindəki Efrayim
torpağında – Piratonda dəfn olundu.

# 13

*Şimşonun doğulması*

1 İsrail övladları yenə də Rəbbin gözündə pis işlər
etdilər. Rəbb onları qırx il Filiştlilərə təslim etdi.
2 Dan qəbiləsindən Manoah adlı Soralı bir adam
var idi. Onun arvadı doğmurdu, sonsuz idi.
3 Rəbbin mələyi bu qadına görünüb dedi: «Bax indi
sən sonsuzsan, doğmursan, amma hamilə olub bir
oğlan doğacaqsan. 4 İndidən diqqətli ol: sən nə
şərab, nə də başqa kefləndirici içki içmə və dilinə
heç bir haram şey dəyməsin. 5 Ona görə ki sən
hamilə olub bir oğul doğacaqsan və qoy onun başına
ülgüc dəyməsin. Çünki uşaq ana bətnindən Allaha
həsr olunmuş Naziri* olacaq. O, İsraili Filiştlilərin
əlindən qurtarmağa başlayacaq».
6 Qadın gedib ərinə belə dedi: «Mənim yanıma
bir Allah adamı gəlmişdi. O, Allahın mələyi
görkəmində çox zəhmli idi. Buna görə də onun
haradan gəldiyini soruşmadım. Mənə adını da
bildirmədi. 7 Lakin dedi ki, sən hamilə olub bir
oğul doğacaqsan. İndidən sən nə şərab, nə də başqa
kefləndirici içki iç və dilinə heç bir haram şey
dəyməsin, çünki uşaq ana bətnindən ölən gününə
qədər Allahın Nazirisi olacaq».
8 Manoah Rəbbə yalvarıb dedi: «Ya Xudavənd,
yalvarıram, göndərdiyin Allah adamı qoy
yanımıza yenə gəlsin və doğulacaq uşaq barədə

---

* **13:5** Naziri – yəni Allaha həsr olunan adam. Bax: Say. 6:2.

nə edəcəyimizi bizə öyrətsin». 9 Allah Manoahın
səsini eşitdi. Qadın çöldə oturanda Allahın mələyi
yenə onun yanına gəldi. Lakin qadının əri Manoah
yanında deyildi. 10 Qadın cəld qaçıb ərinə xəbər
verərək dedi: «Budur, ötən gün yanıma gələn o
adam yenə mənə göründü». 11 Manoah durub
arvadının arxasınca getdi və o adamın yanına gəlib
soruşdu: «Arvadımla söhbət edən adam sənsənmi?»
O «mənəm» dedi. 12 Manoah dedi: «Sənin sözlərin
yerinə yetəndə uşağın həyat tərzi və işi nə olacaq?»
13 Rəbbin mələyi Manoaha dedi: «Arvadın ona
tapşırdığım şeylərdən özünü qorusun. 14 Tənəkdən
emal olunan şeylərdən heç nə yeməsin. Nə şərab,
nə də başqa kefləndirici içki içsin və dilinə heç bir
haram şey dəyməsin. Qoy ona əmr etdiyim hər
şeydən özünü qorusun».

15 Manoah Rəbbin mələyinə dedi: «Rica edirəm,
bir ayaq saxla, sənin üçün bir oğlaq kəsib yemək
hazırlayaq». 16 Rəbbin mələyi Manoaha dedi: «Məni
burada saxlasan belə, sənin çörəyindən yemərəm.
Əgər yandırma qurbanı vermək istəyirsənsə, onu
Rəbbə təqdim et». Amma Manoah bilmirdi ki,
bu, Rəbbin mələyidir. 17 O, Rəbbin mələyinə dedi:
«Sənin adın nədir ki, sözlərin yerinə yetəndə səni
şərəfləndirək?» 18 Rəbbin mələyi ona dedi: «Niyə
adımı soruşursan? Ecazkar adım var». 19 Manoah
oğlağı və taxıl təqdimini götürüb qaya üzərində
Rəbbə təqdim etdi. Mələk də Manoah ilə arvadının
gözü önündə qeyri-adi bir şey etdi. 20 Qurbangahın
üstündən alov göyə qalxanda Rəbbin mələyi də qur-
bangahın alovu ilə bərabər göyə qalxdı. Manoahla
arvadı bunu görəndə ikisi də üzüstə yerə döşəndi.

21 Rəbbin mələyi bundan sonra Manoahla

arvadına bir daha görünmədi. Manoah o zaman
bildi ki, bu, Rəbbin mələyidir. 22 Manoah arvadına
dedi: «Biz mütləq öləcəyik, çünki Allahı gördük».
23 Arvadı ona dedi: «Əgər Rəbb bizi öldürmək
istəsəydi, bizdən yandırma qurbanı və taxıl
təqdimi qəbul etməzdi. Bu şeyləri bizə göstərməz
və indi eşitdiklərimizi deməzdi». 24 Beləliklə,
qadın bir oğul doğdu və adını Şimşon qoydu. Uşaq
böyüdükcə Rəbb ona xeyir-dua verdi. 25 Sora ilə
Eştaol arasında, Maxane-Danda Rəbbin Ruhu onu
idarə etməyə başladı.

# 14

*Şimşon və Timnalı qadın*

1 Bir gün Şimşon Timnaya endi və Timnada Filişt
qızlarından bir qadın gördü. 2 O, ata-anasının yanına
qayıdıb dedi: «Timnada Filişt qızlarının arasında bir
qadın görmüşəm, gedin, onu mənim üçün arvad
alın». 3 Atası ilə anası ona dedilər: «Məgər qohum-
larının qızları arasında, xalqımın arasında bir qadın
yoxdur ki, gedib özünə sünnətsiz Filiştlilərdən ar-
vad alırsan?» Şimşon atasına dedi: «Mənim üçün
onu alın, çünki gözümə o xoş görünür». 4 Ata
və anası bilmirdi ki, bu istək Rəbdəndir. Ona
görə ki Rəbb Filiştlilərin hakimiyyətini devirmək
üçün fürsət axtarırdı. O dövrdə Filiştlilər İsraillilərin
üstündə hökmranlıq edirdi.

5 Şimşon ata və anası ilə birlikdə Timnaya endi.
Onlar Timnanın üzüm bağlarına çatanda qəflətən
cavan bir aslan nərə çəkərək onun qarşısına çıxdı.
6 Rəbbin Ruhu qüvvəsi ilə Şimşonun üstünə endi.
Onun əli boş idi, amma cavan aslanı balaca oğlaq

kimi parçaladı. Ata-anasına isə heç nə bildirmədi.
7 Sonra enib qadınla söhbət etdi və qadın Şimşonun
gözünə xoş göründü.

*Şimşon və tapmaca*

8 Bir müddət keçəndən sonra Şimşon qadını al-
maq məqsədi ilə geri qayıtdı. Aslanın leşinə
baxmaq üçün o öz yolundan döndü. Gördü ki,
aslanın leşinin üstündə arı beçəsi ilə bal var. 9 O,
ovucları ilə baldan götürdü və yeyə-yeyə ata-
anasının yanına gəldi. Baldan onlara da verdi,
lakin onlara bildirmədi ki, balı aslanın leşinin
üzərindən götürüb.

10 Atası qadının evinə getdi və Şimşon orada
ziyafət qurdu, çünki o zamanlar cavanlar belə
edərdi. 11 Onu görən xalq müşayiət üçün ona
otuz nəfər sağdış-soldış seçdi. 12 Şimşon onlara
dedi: «İndi mən sizə bir tapmaca deyəcəyəm. Əgər
ziyafətin yeddinci gününə qədər açmasını mənə
desəniz, mən sizə otuz dəst kətan paltar və otuz
dəst bayram libası verəcəyəm. 13 Yox, əgər tap-
macanın açmasını mənə deyə bilməsəniz, onda siz
mənə otuz dəst kətan paltar və otuz dəst bayram
libası verməlisiniz». Ona dedilər: «Tapmacanı de,
bir ona qulaq asaq». 14 Şimşon onlara dedi:
«Yeyəndən bir yeməli şey çıxdı,
Güclüdən bir şirin şey çıxdı».

Üç gün ərzində onlar tapmacanı tapa bilmədilər.

15 Dördüncü gün * olanda Şimşonun arvadına
dedilər: «Ərini başa sal ki, bizə bu tapmacanın

---

* **14:15** Dördüncü gün – qədim yunan və süryani tərcümələrində belədir, ibrani mətnində isə yeddinci gün.

cavabını desin, yoxsa sənin də, atanın da evini
yandırarıq. Siz bizi buraya soymağa çağırmısınız?»
16 Arvadı Şimşonun qarşısında ağlayıb dedi: «Əslində
məndən zəhlən gedir, məni sevmirsən, ona görə də
xalqımın oğullarına dediyin tapmacanın cavabını
mənə açmırsan». Şimşon ona dedi: «Bax heç atama
və anama da bu tapmacanın cavabını açmamışam.
Sənəmi açım?» 17 Yeddi gün ziyafət davam edə-
edə qadın onun qarşısında ağladı. Yeddinci gün
Şimşon tapmacanın açmasını arvadına dedi, çünki
qadın onu cana gətirmişdi. Qadın da gedib tap-
macanın cavabını öz xalqına söylədi. 18 Şəhərin
adamları yeddinci gün günəş batmazdan əvvəl
Şimşona dedilər:

«Baldan şirini varmı?
Aslandan güclüsü varmı?»

Şimşon onlara dedi: «Əgər mənim düyəmlə kotan
sürməsəydiniz, tapmacamı tapa bilməzdiniz».
19 Bundan sonra Rəbbin Ruhu qüvvə ilə onun
üstünə endi. Şimşon Aşqelona gedib oradakılardan
otuz nəfəri öldürərək onların mallarını talan edib
tapmacanın açmasını deyənlərə bayram libası
verdi. Sonra o, alovlu qəzəblə atasının evinə
qalxdı. 20 Şimşonun arvadını isə Şimşonu müşayiət
edən sağdışlarından birinə verdilər.

# 15

### *Şimşonun Filiştlilərdən qisas alması*

1 Bir müddət keçəndən sonra, buğda biçini
mövsümündə Şimşon bir oğlaq götürüb arvadına
baş çəkməyə getdi və dedi: «Arvadımın yanına –
gərdəyə girmək istəyirəm». Lakin qadının atası
Şimşonu gərdəyə girməyə qoymadı. 2 Qızın atası

dedi: «Elə bildim ki, sənin ondan, həqiqətən,
zəhlən gedir, ona görə də arvadını sənin sağdışına
ərə verdim. Bax onun kiçik bacısı var. O ondan
da gözəl deyilmi? Rica edirəm, qoy onun yerinə
bu sənin olsun». 3 Şimşon onlara dedi: «Bu dəfə
Filiştlilərə pislik etsəm, heç təqsirkar olmaram».
4 Şimşon gedib üç yüz tülkü tutdu və məşəllər
götürdü. Tülküləri cüt-cüt quyruq-quyruğa bağladı
və quyruqların arasına bir məşəl qoydu. 5 Məşəlləri
yandırıb tülküləri Filiştlilərin əkinlərinə buraxdı və
bununla da taxıl dərzlərinə, əkinlərə, üzümlüklərə,
zeytunluqlara od vurdu.

6 Filiştlilər bir-birindən soruşdular: «Görəsən
bunu kim edib?» Kimsə dedi ki, bunu Timnalının
kürəkəni Şimşon edib, çünki qayınatası götürüb
onun arvadını sağdışına ərə verib. Filiştlilər çıxıb
o qadınla atasına od vurub yandırdılar. 7 Şimşon
onlara dedi: «İndi ki siz belə etdiniz, mütləq sizdən
qisasımı almamış əl çəkməyəcəyəm». 8 Şimşon on-
lara amansızcasına hücum edərək çoxunun belini
qırdı. Özü isə Etam qayasının oyuğuna enib orada
qaldı.

9 Filiştlilər çıxıb Yəhudada ordugah qurdular
və Lexidə yayıldılar. 10 Yəhuda adamları dedi:
«Nə üçün bizə qarşı çıxmısınız?» Onlar dedilər:
«Biz gəlmişik ki, Şimşonun əl-qolunu bağlayaq
və bizim başımıza gətirdiyini onun başına
gətirək». 11 Yəhudadan üç min nəfər Etam
qayasının oyuğuna enib Şimşona dedi: «Bilmirsən
Filiştlilər bizim üzərimizdə hakimdir? Bu nə işdir
başımıza gətirdin?» Şimşon onlara dedi: «Onların
mənə elədiklərini onların başına gətirmişəm».

12 Yəhudalılar ona dedi: «Biz sənin əl-qolunu
bağlayıb Filiştlilərə təslim etməyə gəlmişik». Şimşon
onlara dedi: «And için ki, məni öldürməyəcəksiniz».
13 Yəhudalılar söz verdilər: «Yox, biz ancaq səni
möhkəm bağlayıb onlara təslim edəcəyik və səni
əsla öldürmərik». Sonra onu iki təzə iplə sarıdılar
və qayadan çıxartdılar.

14 Şimşon Lexiyə gələndə Filiştlilər onu bağıra-
bağıra qarşıladılar və elə o anda Rəbbin Ruhu qüvvə
ilə Şimşonun üstünə endi. Qollarına bağlanan ip
alışıb-yanan kətan kimi qırılıb yerə töküldü. 15 O,
yerdə bir eşşəyin saf çənə sümüyünü tapdı. Əl
ataraq sümüyü götürüb onunla min nəfər kişini
qırdı. 16 Sonra Şimşon belə dedi:

«Eşşəyin çənə sümüyü ilə bir-iki qalaq yaratdım.

Eşşəyin çənə sümüyü ilə min nəfəri qırıb-çatdım».
17 Şimşon bu sözləri söyləyib qurtarandan sonra
eşşəyin çənə sümüyünü tulladı. Ona görə də o yerə
Ramat-Lexi * deyilir.

18 Bundan sonra Şimşon bərk susadı və Rəbbə
fəryad edib dedi: «Sən quluna bu böyük qələbəni
verdin, amma indi mən susuzluqdan ölüb
sünnətsizlərin əlinə düşümmü?» 19 Onda Rəbb
Lexidə çuxur yarıb su axıtdı. Şimşon su içəndə
cana gəlib ruhlandı. Buna görə bu çeşmənin adı
En-Haqqore † qoyuldu və bu bulaq bu günə qədər
Lexidədir. 20 Filiştlilərin hökmranlığı dövründə
Şimşon İsraildə iyirmi il hakimlik etdi.

---

* **15:17** Ramat-Lexi – ibrani dilində çənə sümüyü təpəsi. † **15:19** En-Haqqore – ibrani dilində fəryad edənin çeşməsi.

# 16

## *Şimşon və Delila*

1 Şimşon Qəzzəyə getdi və orada bir fahişə görüb
evinə girdi. 2 Qəzzəlilərə xəbər çatdı ki, Şimşon bu-
raya gəlib. Qəzzəlilər evi mühasirəyə aldılar. «Dan
yeri ağarana qədər onu öldürərik» deyərək bütün
gecəni şəhərin darvazasında pusquda durub onu
gözlədilər. 3 Şimşon gecəyarısına qədər yatdı, sonra
ayağa qalxdı. O gəlib şəhər darvazasının hər iki
dirəyindən tutaraq cəftə qarışıq darvazanı çiyninə
qoydu və Xevronun qarşısındakı dağın təpəsinə
çıxartdı.

4 Bundan bir qədər sonra Şimşon Soreq va-
disində Delila adlı bir qadına vuruldu. 5 Filiştlilərin
ağaları o qadının yanına gəlib dedilər: «Şimşonu dilə
tutub öyrən, gör onda bu qədər güc haradandır?
Onu özümüzə tabe etmək üçün necə gücdən salıb
bağlaya bilərik? Bundan ötrü hər birimiz sənə min
yüz şekel gümüş verərik».

6 Delila Şimşona dedi: «Rica edirəm, səndəki bu
böyük qüvvənin haradan olduğunu mənə söylə.
Səni necə ram etmək və bağlamaq olar?» 7 Şimşon
ona dedi: «Əgər məni yeddi kaman yayı düzəldilən
qurumamış, təzə iplə bağlasalar, o zaman gücdən
düşüb adi adam kimi oluram». 8 Filiştlilərin ağaları
qadının yanına yeddi qurumamış, təzə ip gətirdilər
və Delila bunlarla Şimşonu bağladı. 9 İç otaqda
qadının pusquda duran adamları var idi. Qadın
Şimşona dedi: «Filiştlilər sənin üstünə gəldilər, ey
Şimşon!» Şimşon isə qollarındakı ipləri oda toxunub
qırılan kətan lifi kimi qırdı və gücünün sirri bil-
inmədi.

10 Delila Şimşona dedi: «Bax məni lağa qoyub
yalan demişdin. Rica edirəm, indi mənə bildir,
səni hansı iplə bağlamaq olar?» 11 Şimşon dedi:
«Əgər heç işlədilməmiş təzə iplərlə məni yaxşıca
bağlasalar, o zaman gücdən düşüb adi adam kimi
oluram». 12 Delila yeni iplər götürüb onlarla
Şimşonu bağlayıb dedi: «Filiştlilər sənin üstünə
gəldilər, ey Şimşon!» Pusquda duranlar iç otaqda
qalmışdı. O isə qollarındakı iplərin sarığını sap
kimi qırdı.

13 Delila Şimşona dedi: «Bəsdir, indiyə qədər
məni lağa qoyub yalan dedin. İndi isə bir başa sal
görüm, səni nə ilə bağlamaq olar?» Şimşon dedi:
«Saçımın yeddi hörüyünü toxucu dəzgahındakı
parça ilə toxusan». 14 Sonra Delila onun saçının
yeddi hörüyünü payaya bərkitdi və onu səslədi:
«Filiştlilər sənin üstünə gəldilər, ey Şimşon!» O
yuxudan oyandı və toxucu dəzgahının payasını
parça ilə qopardı.

15 Delila dedi: «Ürəyində mənə etibarın yox
ikən necə "səni sevirəm" deyirsən? Bununla
üçüncü dəfədir ki, məni lağa qoyursan və bu
böyük qüvvənin səndə haradan olduğunu mənə
bildirmirsən». 16 Qadının bu sözlərindən, hər gün
ona əziyyət və başağrısı verməsindən Şimşonun
canı boğazına yığıldı. 17 Ona görə də ürəyinin sirrini
qadına açdı: «Mənim başıma ülgüc dəyməmişdi,
çünki mən ana bətnindən Allahın Nəzirisiyəm.
Əgər başım qırxılsa, o zaman bu qüvvə məndən çıxar
və gücdən düşüb adi adam kimi olaram».

### *Şimşonun ölümü*

18 Delila Şimşonun ürəyinin sirrini ona açdığını
görəndə Filiştlilərin ağalarına xəbər göndərib on-
ları çağırdı və dedi: «Bu dəfə də buraya gəlin,
çünki o, ürəyindəki sirri mənə açdı». Filiştlilərin
ağaları əllərində gümüş gətirərək Delilanın yanına
gəldilər. 19 Delila dizləri üstündə Şimşonu yuxuya
verdi. Sonra adam çağırıb onun saçının yeddi
hörüyünü qırxdırdı və bununla onu gücdən saldı.
Şimşonun gücü get-gedə yox oldu. 20 Delila yenə
dedi: «Filiştlilər sənin üstünə gəldilər, ey Şimşon!»
Şimşon yuxudan oyanıb düşündü: «Başqa vaxtlarda
olduğu kimi bu dəfə də onların əlindən sıçrayıb
çıxaram». Lakin bilmirdi ki, Rəbb ondan ayrılıb.
21 Filiştlilər onu yaxalayıb gözlərini çıxartdılar. Onu
Qəzzəyə endirib tunc zəncirlərlə bağladılar. O, zin-
danda dəyirman daşı çəkirdi. 22 Lakin Şimşonun
qırxılmış saçı yenidən bitməyə başladı.

23 Filiştlilərin ağaları öz allahları Daqona böyük
qurban kəsmək və şənlik etmək üçün yığılıb
dedilər: «Allahımız düşmənimiz Şimşonu bizə
təslim etdi». 24 Xalq Şimşonu görəndə öz allahlarına
həmdlər etdi və dedi:
«Ölkəmizə ziyan vuran,
Bizdən bir çoxunu öldürən
Düşmənimizi allahımız bizə təslim etdi».
25 Onların kefi kökələndə dedilər: «Şimşonu bura
gətirin, qoy bizi əyləndirsin». Onlar Şimşonu zin-
dandan çağırtdırdılar və Şimşon onların qarşısında
oynadı. Onu dirəklər arasında dayandırdılar.
26 Şimşon əlindən tutan gəncə dedi: «Nə olar, məni
burax, məbədin damını saxlayan dirəklərə tox-
unum və onlara söykənim». 27 Məbəd kişi və
qadınlarla dolu idi. Filiştlilərin bütün ağaları da

orada idi. Şimşonun oynamasına tamaşa edən üç
minə qədər kişi və qadın isə damın üstündə idi.
28 Şimşon Rəbbə fəryad edib dedi: «Ey Xudavənd
Rəbb, yalvarıram, məni yada sal. Yalvarıram, ay
Allah, mənə ancaq bu dəfəlik qüvvət ver ki, bu
Filiştlilərdən iki gözüm üçün bir zərbə ilə qisas
alım». 29 Şimşon əllərini məbədin damını saxlayan
iki orta dirəyə uzatdı. Sağ əli ilə bir, sol əli ilə
isə o biri dirəkdən yapışdı. 30 Şimşon «qoy mən
də Filiştlilərlə bir ölüm» dedi. Sonra var gücü ilə
əyilərək dirəkləri itələyib məbədin damını oradakı
bütün ağaların və xalqın üzərinə saldı. Beləliklə,
Şimşon öləndə həyatı boyu öldürdüyü adamlar-
dan daha çox adam öldürdü. 31 Onun qardaşları,
atasının bütün külfəti məbədə endilər və Şimşonun
meyitini oradan çıxarıb apardılar. Onu Sora ilə
Eştaol arasında atası Manoahın məqbərəsində dəfn
etdilər. Şimşon İsraildə iyirmi il hakimlik etmişdi.

# 17

## *Mikeyanın ev bütləri*

1 Efrayimin dağlıq bölgəsindən olan Mikeya adlı
bir adam var idi. 2 O, anasına belə dedi: «Səndən
oğurlanan min yüz şekel gümüşdən ötrü lənət etdin
və bunu mənə eşitdirdin. Budur, o gümüş məndədir,
onu mən götürmüşəm». Anası ona dedi: «Oğlum,
qoy Rəbb sənə xeyir-dua versin». 3 O, min yüz şekel
gümüşü anasına qaytardı. Anası ona dedi: «Bu
gümüşün hamısını Rəbb üçün təqdis edirəm. Qoy
oğlum ondan bir oyma və bir tökmə büt düzəltsin.
İndi bu gümüşü sənə qaytarıram». 4 Gümüşü
anasına geri qaytararkən anası iki yüz şekel gümüş

götürüb zərgərə verdi. Ondan bir oyma və bir
tökmə büt düzəltdirdi. Bu bütləri Mikeyanın evinə
qoydular. 5 Mikeyanın ibadətgahı var idi. O, bir
efod və ev bütləri düzəldib oğullarından birini özünə
kahin təyin etdi. 6 * O dövrdə İsraildə padşah yox idi,
hərə öz gözündə doğru görünən işi edirdi.
7 Yəhudanın Bet-Lexem şəhərindən olan bir
Yəhudalının ailəsində yaşayan gənc Levili var idi.
8 Həmin adam yaşamağa bir yer tapmaq üçün
Yəhudanın Bet-Lexem şəhərindən çıxdı. Səfərə
çıxarkən Efrayimin dağlıq bölgəsinə – Mikeyanın
evinə gəldi. 9 Mikeya ona dedi: «Haradan gəlirsən?»
O, Mikeyaya dedi: «Mən Yəhudanın Bet-Lexem
şəhərindən gələn bir Leviliyəm, bir yer tapıb
yaşamaq istəyirəm». 10 Mikeya ona dedi: «Mənimlə
qal, mənə ata və kahin ol. Mən də sənə ildə on şekel
gümüş, bir dəst paltar və yeməyini verərəm». Lev-
ili onunla getdi. 11 O, Mikeya ilə qalmağa razı oldu
və bu gənc ona bir oğul kimi oldu. 12 Mikeya Lev-
ilini özünə kahin təyin etdi və bu gənc onun evində
yaşadı. 13 Mikeya dedi: «İndi bilirəm ki, Rəbb mənə
yaxşılıq edəcək, çünki bir Levili kahinim var».

# 18

### *Mikeyanın evinin qarət edilməsi*

1 O dövrdə İsraildə padşah yox idi. Elə həmin
dövrdə Dan qəbiləsi yaşamaq üçün özlərinə irsi tor-
paq axtarırdı, çünki o günə qədər İsrail qəbilələri
arasında onlara irs olaraq torpaq düşməmişdi.
2 Dan övladları ölkəni axtarıb aramaq üçün Sora
və Eştaol şəhərlərindən olan bütün nəsillərindən

---
* **17:6** Hak. 21:25

beş nəfər igid adamı kəşfiyyata göndərdilər və onlara dedilər: «Gedin, ölkəni axtarın». Onlar Efrayimin dağlıq bölgəsinə – Mikeyanın evinə gəldilər və
orada gecələdilər. 3 Hələ Mikeyanın evinin yanında
ikən gənc Levilinin səsini tanıdılar və evə tərəf dönüb ondan soruşdular: «Buraya səni kim gətirib? Burada nə edirsən? Sənin burada nə işin var?»
4 Levili onlara dedi: «Mikeya mənim üçün belə-belə işlər gördü. O məni muzdla tutdu və mən də
onun kahini oldum». 5 Danlılar ona dedilər: «Rica
edirik, Allaha müraciət et. Qoy biz getdiyimiz bu
yolun necə uğurlu olacağını öyrənək». 6 Kahin on-
lara dedi: «Salamat gedin, getdiyiniz bu yol Rəbbə xoşdur».

7 Bu beş igid gedib Layişə çatdı və gördü ki, orada yaşayan xalq qayğısızdır. Sidonlular kimi dinc və rahat yaşayırlar. Bu bölgədə onlara hökm edib əziyyət verən heç kim yox idi. Onlar Sidonlulardan uzaqda olub başqa heç kəslə əlaqələri yox
idi. 8 İgidlər Sora və Eştaol şəhərlərinə, öz xalqının
yanına qayıdanda xalq onlara dedi: «Nə öyrənə
bildiniz?» 9 İgidlər onlara dedilər: «Qalxın, Sidonlulara hücum edək, çünki onların torpağını gördük, çox yaxşıdır. Niyə boş dayanmısınız? Tərəddüd
etməyin, gedib torpağı alın! 10 Oraya çatanda
qayğısız bir xalq görəcəksiniz. Allahın sizə verdiyi bu torpaq çox genişdir. Ora elə torpaqdır ki, heç nəyə ehtiyacları yoxdur».

11 Dan nəslindən altı yüz kişi silahlanaraq Sora
və Eştaoldan yola düşdülər. 12 Yəhudaya qalxıb
Qiryat-Yearimdə gecələdilər. Buna görə də o yer bu

günə qədər Maxane-Dan * adlanır. O yer Qiryat-
Yearimin qərbində yerləşir. 13 Oradan Efray-
imin dağlıq bölgəsinə keçdilər və Mikeyanın evinə
gəldilər.
14 Layiş diyarını axtarmaq üçün gedən beş nəfər
kişi öz xalqına sual verdi: «Bu evlərdə efod, ev
bütləri, həm də oyma və tökmə bütlərin olduğunu
bilirsinizmi? Onda görün nə edirsiniz, bu barədə
bir qərara gəlin». 15 Onlar oraya burulub, o gənc
Levilinin qaldığı Mikeyanın evinə gələrək onun
hal-əhvalını xəbər aldılar. 16 Dan övladlarından
döyüş üçün silahlanmış altı yüz nəfər onun dar-
vazasının girişində dayandı. 17 Ölkəni axtarmağa
gedən həmin o beş igid evə girib oyma bütü, efodla
ev bütlərini və tökmə bütü götürdülər. Kahin və
silahlanmış altı yüz nəfər isə darvazanın girişində
dayanmışdı. 18 Onlar Mikeyanın evinə girib
oyma bütü, efodla ev bütlərini və tökmə bütü
götürdükləri zaman kahin onlardan soruşdu: «Nə
edirsiniz?» 19 Onda dedilər: «Sus, əlinlə ağzını yum
və dur bizimlə gedək, bizə ata və kahin ol. Sənin
üçün bir adama kahin olmaq yaxşıdır, yoxsa bir
İsrail qəbiləsinə, bir nəslə?» 20 Kahinin könlü şad
oldu, efodla ev bütlərini və oyma bütü götürüb
xalq ilə bərabər getdi.
21 Onlar öz külfətlərini, heyvanları və ev
əşyalarını qabaqlarına qatıb yola düşdülər.
22 Mikeyanın evindən uzaqlaşanda Mikeyanın
qonşuları toplaşaraq Dan övladlarına çatdılar.
23 Onlar Dan övladlarını səslədi. Dan övladları
üzlərini Mikeyaya tutub dedi: «Sənə nə olub

* **18:12** Maxane-Dan – ibrani dilində Dan ordugahı.

ki, bunları bura yığmısan?» 24 Mikeya onlara
dedi: «Düzəltdiyim allahları və kahini götürüb
getdiniz, bəs mənə nə qaldı? Hələ bir soruşursunuz
ki, sənə nə olub?» 25 Dan övladları ona dedilər:
«Səsin aramızda eşidilməsin, yoxsa qəzəbindən
odlanan adamlarımız sənin üstünə düşər, həm öz
həyatını, həm də evindəkilərin həyatını itirərsən».
26 Dan övladları yollarına davam etdilər. Mikeya
bu adamların ondan güclü olduğunu görüb evinə
qayıtdı.

27 Dan övladları Mikeyanın düzəltdiyi şeyləri və
onun kahinini götürüb Layişə, dinc və rahat bir
xalqa hücum etdi. Əhalisini qılıncdan keçirib şəhərə
od vurdular. 28 Onları qurtaran olmadı, çünki
Layiş Sidondan uzaqda idi. Bu xalqın başqa heç
kəslə əlaqəsi yox idi. Bu şəhər Bet-Rexovun yanında
olan bir vadidə yerləşir. Danlılar bu şəhəri bərpa
edib orada yaşadılar. 29 Onlar İsraildən törənən
öz ataları Danın xatirinə bu şəhərin adını Dan
qoydular. Amma əvvəlcə şəhərin adı Layiş idi.
30 Dan övladları orada oyma bütü qurdular və
əhali əsirliyə düşən günə qədər Musa oğlu † Gerşom
oğlu Yonatan özü və oğulları Dan qəbiləsinə kahin
oldu. 31 Allahın evi Şiloda olarkən bütün bu dövrdə
Danlılar Mikeyanın düzəltdiyi oyma bütə sitayiş
edirdilər.

# 19

### *Giveada baş verən dəhşətli hadisə*

1 İsraildə padşah olmayan dövrdə Efrayimin
dağlıq bölgəsinin ucqar bir hissəsində bir Levili

---

† **18:30** Musa oğlu – ibrani dilində Menaşşe oğlu kimi də oxunur.

yaşayırdı. O, Yəhudanın Bet-Lexem şəhərindən özü
üçün bir cariyə almışdı. 2 Bu cariyə ona qarşı zina
etdi və ondan ayrılıb atasının evinə, Yəhudanın
Bet-Lexem şəhərinə qayıdaraq orada dörd ay qaldı.
3 Əri cariyənin könlünü alıb geri qaytarmaq üçün
onun dalınca getdi. O özü ilə nökərini və bir cüt
eşşək götürdü. Cariyə ərini ata evinə apardı və
atası kişini görəndə onu sevinclə qarşıladı. 4 Bu
kişinin qayınatası – gənc qadının atası onu evində
qonaq saxladı. Kişi onlarda üç gün qaldı və onlar
yeyib-içib orada gecələdilər. 5 Dördüncü gün sübh
tezdən durdular. Kişi getməyə hazırlaşanda gənc
qadının atası kürəkəninə dedi: «Bir loğma çörək ye
ki, ürəyində taqət olsun, ondan sonra gedərsiniz».
6 Onlar oturdular və ikisi də birlikdə yeyib-içdilər.
Sonra gənc qadının atası bu kişiyə dedi: «Rica
edirəm, bu gecəni də bizimlə qal, qoy ürəyin şad
olsun». 7 Kişi isə yola düşmək üçün ayağa qalxdı,
lakin qayınatası təkidlə onun qalmasını istədiyinə
görə o gecəni orada keçirdi. 8 Beşinci gün kişi geri
qayıtmaq üçün sübh tezdən qalxanda gənc qadının
atası ona dedi: «Rica edirəm, bir az yemək ye ki,
ürəyində taqət olsun. Günortadan sonraya qədər
ləngisəniz, nə olar?» Onlar ikisi də birlikdə yedilər
və içdilər. 9 Kişi cariyəsi və nökəri ilə getmək üçün
ayağa qalxanda qayınatası – gənc qadının atası
ona dedi: «Bax gün günortanı keçib, axşama çatır.
Rica edirəm, bu gecəni də burada qal, qoy ürəyin
şad olsun. Sabah səhər tezdən durub evinizə
qayıdarsınız».

10 Lakin bu kişi gecəni onunla qalmaq
istəməyərək ayağa qalxıb yola düşdü. O, Yevus,

yəni indiki Yerusəlim şəhərinin qarşısına gəlib
çıxdı. Onun palanlı iki eşşəyi var idi, cariyəsi
də yanında idi. 11 Onlar Yevusa yaxınlaşanda
artıq gün batmaqda idi. Nökəri ağasına dedi:
«Rica edirəm, gəl Yevusluların bu şəhərinə girək
və burada gecələyək». 12 Ağası ona dedi: «Yox,
İsrail övladlarından olmayan yadellilərin şəhərinə
girməyək, Giveaya gedək». 13 Sonra ağası nökərinə
dedi: «Gəl çalışaq Giveaya ya da ki Ramaya çataq.
Onların birində gecələyək». 14 Onlar oradan keçib
getdilər. Binyaminin Givea şəhərinə yaxınlaşarkən
artıq günəş batmışdı. 15 Gecəni Giveada keçirmək
üçün oranın yoluna döndülər. Kişi şəhərə girib
meydanda oturdu, amma onları gecələmək üçün
evinə aparan kimsə yox idi.

16 Bu zaman axşam bir qoca tarladan – işdən
evə qayıdırdı. O, Efrayimin dağlıq bölgəsindən
idi, amma Giveada yaşayırdı. Oranın sakinləri
isə Binyaminlilərdən ibarət idi. 17 Bu qoca
başını qaldırıb şəhərin meydanındakı yolçunu
görüb dedi: «Haradan gəlib, hara gedirsən?»
18 Kişi ona dedi: «Biz Yəhudanın Bet-Lexem
şəhərindən Efrayimin dağlıq bölgəsinin ucqar
bir hissəsinə gedirik. Mən oralıyam. Yəhudanın
Bet-Lexem şəhərinə getmişdim, indi isə Rəbbin
evinə qayıdıram, amma məni evinə aparan
yoxdur. 19 Halbuki eşşəklərimizin samanı da var,
yemi də var. Mənim, qarabaşımın və yanımdakı
nökərin çörəyi və şərabı var, heç nəyə ehtiyacımız
yoxdur». 20 Qoca dedi: «Canın sağ olsun! Təki
mənim üzərimə sənin ehtiyacların düşsün, ancaq
meydanda gecələmə». 21 Onu götürüb evinə

gətirdi və eşşəklərinə yem verdi. Hamı ayaqlarını
yuyandan sonra yeyib-içdilər.

22 Onlar könüllərini şad edərkən, budur, şəhər
sakinlərindən bir dəstə yaramaz adam evi əhatəyə
alıb qapını döydü. Bu adamlar ev sahibi qo-
caya dedi: «Evinə gələn kişini bayıra çıxar, onunla
cinsi əlaqədə olaq». 23 Ev sahibi bayıra çıxıb
onlara dedi: «Yox, soydaşlarım, yalvarıram pis-
lik etməyin. Madam ki bu adam mənim evimə
gəlib, bu alçaqlığı etməyin. 24 Bax mənim evdə ərə
getməmiş qızım və o kişinin cariyəsi var. Qoy onları
bura çıxarım, bu biabırçılığı onlarla edin, onlarla
gözünüzə xoş görünəni edin, lakin bu kişi ilə belə
alçaqlıq etməyin». 25 Lakin bu adamlar ona qulaq
asmaq istəmədilər. Ona görə də Levili cariyəsinin
qolundan tutub bayıra – onların yanına çıxardı.
Onlar onunla cinsi münasibətdə olub bütün gecəni
səhərəcən pis işlər gördülər. Dan yeri söküləndə isə
qadını buraxdılar. 26 Qadın gün ağaranda ağasının
qaldığı yerə – qocanın evinə qayıdıb darvazanın
yanında yerə sərildi və hava açılana qədər orada
qaldı.

27 Ağası səhər qalxıb evin qapılarını açdı və yol-
una davam etmək üçün çıxanda cariyəsini evin
darvazasında əlləri astanada yerə sərilmiş gördü.
28 Kişi qadına dedi: «Dur, gedək». Lakin ondan heç
bir cavab gəlmədi. Sonra kişi cariyəsini eşşəyin
üstünə qoyub öz şəhərinə yola düşdü. 29 O, evinə
çatanda bir bıçaq götürüb cariyəsinin cəsədini hissə-
hissə on iki parçaya böldü. O doğradığı hissələri
bütün İsrail ərazisinə göndərdi. 30 Bu hissələri
görən hər kəs belə dedi: «İsrail övladları Misirdən

çıxandan bu günədək belə bir hadisə olmamışdır və görünməmişdir. Bu barədə düşünün, məsləhətləşib bir qərar verin».

# 20

*İsraillilərlə Binyaminlilər arasında olan qardaş qırğını*

1 Bütün İsrail övladları Dandan Beer-Şevaya qədər
ərazidən və Gilead torpağından Mispaya çıxdılar.
İcma bir nəfər kimi Rəbbin önündə toplandı.
2 Bütün xalqın, bütün İsrail qəbilələrinin başçıları
Allahın xalqının toplantısında öz yerlərini tutdular.
Orada qılınc daşıyan dörd yüz min piyada var idi.
3 Binyamin övladları İsrail övladlarının Mispaya
çıxdıqlarını eşitdi. Orada İsrail övladları dedilər:
«Danışın görək, bu pis hadisə necə baş verdi?»
4 Öldürülən qadının əri olan Levili onlara cavab
verdi: «Mənimlə cariyəm gecələmək üçün
Binyaminin Givea şəhərinə daxil olduq. 5 Givea
kişiləri mənə qarşı qalxdılar və mənim gecələdiyim
evi mühasirəyə aldılar, məni öldürmək istədilər və
cariyəmi zorladılar. Bunun nəticəsində qadın öldü.
6 Mən də cariyəmi götürüb parça-parça doğrayaraq
hər hissəsini İsrailin irs torpaqlarının bütün
bölgələrinə göndərdim, çünki İsraildə pozğunçuluq
və alçaqlıq edilib. 7 Ey İsrail övladları! Baxın hamınız
burada öz fikir və məsləhətinizi verin».
8 Bütün xalq bir nəfər kimi ayağa qalxıb
dedi: «Bizdən heç kim çadırına getməyəcək və
heç kim evinə qayıtmayacaq. 9 İndi belə bir iş
görməliyik: püşk atıb Giveaya hücum edəcəyik.

10 Orduya azuqə gətirmək üçün İsrailin bütün
qəbilələrinin hər yüz nəfərdən onunu, min
nəfərindən yüzünü, on min nəfərindən minini
götürəcəyik ki, Binyaminin Givea şəhərinə gedib
çatanda İsraildə etdikləri alçaq işlərin hamısının
əvəzini onlara edə bilsinlər». 11 Bütün İsraillilər bir
nəfər kimi birləşib o şəhərə qarşı toplandılar.

12 İsrail qəbilələri Binyamin qəbiləsinin
torpaqlarının hər tərəfinə qasidlər göndərib dedi:
«Bu nə pislikdir, sizin aranızdan çıxıb? 13 İndi
Giveada olan o yaramaz adamları bizə verin,
onları öldürək və bununla İsraildən bu pisliyi
təmizləyək». Lakin Binyamin övladları soydaşları
olan İsrail övladlarının sözünə qulaq asmaq
istəmədilər. 14 İsrail övladları ilə döyüşə çıxmaq
üçün Binyamin övladları öz şəhərlərindən Giveaya
toplandılar. 15 Həmin gün şəhərlərdən gələn
Binyamin övladları Givea əhalisindən yığılmış
yeddi yüz seçmə adamdan savayı, qılınc daşıyan
iyirmi altı min kişi də yığdılar. 16 Bütün bu xalqın
arasında solaxay olan yeddi yüz seçmə adam var
idi ki, hər biri sərrast sapand atıb daşla başda olan
bir tükü belə, vura bilirdi və atdıqları boşa çıxmırdı.

17 Binyaminlilərdən başqa, İsraillilərdən qılınc
daşıyan dörd yüz iyirmi kişini saydılar ki, bunların
da hamısı döyüşçü idi. 18 İsrail övladları Bet-Elə
çıxdılar və Allaha müraciət edib dedilər: «Binyamin
övladlarına qarşı biz tərəfdən əvvəlcə kim döyüşə
çıxacaq?» Rəbb dedi: «Əvvəlcə Yəhuda qəbiləsi
çıxacaq».

19 İsrail övladları səhər tezdən qalxıb

Giveaya qarşı ordugah qurdular.
20 İsraillilər
Binyaminlilərlə döyüşə çıxıb Giveada onlara qarşı düzüldülər.
21 Binyamin övladları Giveadan çıxdılar və o gün İsraillilərdən iyirmi iki min kişini vurub yerə sərdilər.
22 Lakin İsrail ordusu cəsarətə gəlib əvvəlki gün düzüldükləri yerdə yenə də döyüşə düzüldü.
23 İsrail övladları Bet-Elə çıxıb Rəbbin önündə axşama qədər ağladılar və Rəbbə müraciət edib dedilər: «Soydaşımız olan Binyamin övladları ilə yenə döyüşə girişəkmi?» Rəbb onlara dedi: «Onların qarşısına çıxın».

24 İkinci gün İsrail övladları Binyamin övladlarına yaxınlaşdılar.
25 Həmin gün də Binyaminlilər onların qarşısına çıxaraq İsrail övladlarından bu dəfə on səkkiz min kişini vurub yerə sərdi. Bunların hamısı qılınc daşıyan adamlar idi.
26 Bütün İsrail övladları, bütün ordu Bet-Elə çıxıb ağladı. Orada Rəbbin önündə qalıb axşama qədər oruc tutdular. Rəbbin hüzurunda yandırma və ünsiyyət qurbanları təqdim etdilər.
27 İsrail övladları Rəbbə müraciət etdilər, çünki Allahın Əhd sandığı o günlər orada idi.
28 Harun oğlu Eleazar oğlu Pinxas o dövrdə sandığın önündə dururdu. Onlar Rəbbə dedilər: «Soydaşlarımız olan Binyamin övladlarına qarşı bir daha döyüşə çıxaqmı, yoxsa bu işdən əl çəkək?» Rəbb dedi: «Çıxın, çünki sabah onları sizə təslim edəcəyəm».

29 İsraillilər pusquda duranları Giveanın ətrafında yerləşdirdilər.
30 Üçüncü gün yenə İsrail övladları Binyamin övladlarına qarşı çıxdılar və əvvəlki kimi Giveaya qarşı düzüldülər.
31 Binyamin

övladları da bu xalqa qarşı çıxdılar və şəhərdən
kənara çəkildilər. Əvvəlki kimi onlar İsrailliləri
qırmağa başladılar. Bet-Elə və Giveaya gedən əsas
yollarda otuz nəfər İsrailli qırıldı. 32 Binyamin
övladları dedilər: «Əvvəlki kimi onlar yenə də
qarşımızda məğlub olur». İsrail övladları isə
dedilər: «Qaçaq, onları şəhərdən uzağa əsas
yollara çıxardaq». 33 Bütün İsraillilər yerlərindən
qalxıb Baal-Tamarda düzüldülər. Birdən-birə
Givea yaxınlığında pusquda duran İsraillilər də
yerlərindən çıxdılar. 34 Bütün İsraildən seçilmiş
on min kişi Giveaya ön cəbhədən hücum etdi.
Döyüş şiddətli idi. Amma Binyaminlilər müsibətlə
qarşılaşdıqlarını bilmədilər. 35 Rəbb İsrailin önündə
Binyaminliləri darmadağın etdi. Həmin gün İsrail
övladları Binyaminlilərdən iyirmi beş min yüz
kişini həlak etdi. Bunların hamısı qılınc gəzdirən
adamlar idi.

36 Binyamin övladları gördülər ki, məğlub
oldular. Belə oldu ki, İsraillilər Giveaya qarşı
qurduqları pusquda duranlara güvəndiklərinə
görə Binyaminlilərə meydan vermişdilər.
37 Pusquda duran adamlar cəld tərpənib Giveaya
hücum etdilər və ətrafa yayılaraq bütün şəhəri
qılıncdan keçirtdilər. 38 Şəhərdən qalxan böyük
tüstü İsraillilərlə pusquda duranlar arasında
təyin olunmuş işarə idi. 39 Bu işarəyə görə döyüş
meydanındakı İsraillilər dönüb Binyaminlilərin
üzərinə getməli idi. Binyaminlilər İsrailliləri
qırmağa başladılar və otuz nəfərə qədər adamı
öldürdülər. Ona görə də belə dedilər: «Yəqin

əvvəlki döyüşdə olduğu kimi önümüzdə məğlub
olurlar». 40 Lakin şəhərdən sütun kimi tüstü
qalxmağa başlayanda Binyaminlilər arxaya
baxıb bütün şəhərdən yanğının göyə yüksəldiyini
gördülər. 41 İsraillilər dönüb onların üstünə
gələndə Binyaminliləri dəhşət bürüdü, çünki
fəlakətlə qarşılaşdıqlarını gördülər. 42 Onlar
İsraillilərin önündən geri çəkilib çölə tərəf qaçdılar,
lakin döyüş oranı da bürüdü. Onları şəhərdən
çıxanlar mühasirəyə alıb qırdılar. 43 Binyaminliləri
mühasirəyə alıb dayanmadan təqib edərək
gündoğana tərəf Giveanın qarşısında onları əzdilər.
44 Binyaminlilərdən on səkkiz min nəfər yerə
sərildi. Bunların hamısı igid cəngavər idi.
45 Qalanları dönüb çölə tərəf, Rimmon qayasına
qaçdılar. İsraillilər əsas yollar boyunca onlardan
beş min kişini qırdılar. Sonra Gidoma qədər
Binyaminlilərin ardınca düşüb daha iki minini
qırdılar. 46 Həmin gün qılınc gəzdirən iyirmi
beş min Binyaminli qırıldı. Bunların hamısı
igid cəngavər idi. 47 Altı yüz kişi isə dönüb
çölə tərəf, Rimmon qayasına qaçdı və dörd ay
orada qaldı. 48 İsraillilər Binyamin övladlarının
torpaqlarına qayıdıb bütün şəhər sakinlərini və
heyvanlarını, əllərinə nə keçdisə, hamısını qılıncdan
keçirdilər. Sonra qarşılarına çıxan bütün şəhərlərə
od vurdular.

# 21

## *Binyamin qəbiləsinin sonrakı aqibəti*

1 İsraillilər «bizdən heç kim qızını Binyamin-
liyə ərə verməyəcək» deyə Mispada and içmişdilər.

2 Xalq Bet-Elə gedib orada axşama qədər Allahın
hüzurunda oturaraq və fəryad edərək bərkdən
ağladı. 3 Onlar dedilər: «Ey İsrailin Allahı Rəbb,
niyə İsraildə belə hadisə baş verdi? Nə üçün bu
gün İsraildən bir qəbilə əskildi?» 4 Ertəsi gün xalq
tezdən qalxıb orada Rəbbə bir qurbangah tikərək
yandırma və ünsiyyət qurbanları təqdim etdi.

5 İsrail övladları dedi: «Bütün İsrail qəbilələrindən
Rəbbin önündəki toplantımıza gəlməyən varmı?»
Çünki Mispada olan Rəbbin önündəki toplantıya
gəlməyənlər haqqında möhkəm and içmişdilər ki,
onlar öldürülməlidirlər. 6 İsrail övladları öz soy-
daşları Binyaminlilərdən ötrü kədərlənib dedilər:
«Bu gün İsraildən bir qəbilə kəsildi. 7 Onlardan sağ
qalanlara arvad tapmaq üçün nə edək? Axı onlara
qızlarımızı ərə verməmək üçün Rəbbin haqqına and
içmişik».

8 Sonra İsrail övladları soruşdu: «İsrail
qəbilələrindən Mispaya, Rəbbin hüzuruna kim
gəlməyib?» Toplantı üçün ordugaha Yaveş-
Gileaddan heç kimin gəlmədiyini öyrəndilər,
9 çünki xalq siyahıya alınanda orada Yaveş-Gilead
əhalisindən heç kimin olmadığı məlum oldu.
10 İcma oraya on iki min igid cəngavər göndərərək
onlara əmr edib dedi: «Gedin, qadınlar və uşaqlar
da daxil olmaqla Yaveş-Gilead əhalisinin hamısını
qılıncdan keçirin. 11 Edəcəyiniz iş belə olacaq: hər
kişini və kişi ilə yatan qadınların hamısını tamamilə
məhv edin». 12 Yaveş-Gilead əhalisi arasında ərə
getməmiş dörd yüz qız tapdılar və onları Kənan
torpağında olan Şilodakı ordugaha gətirdilər.

13 Bütün icma Rimmon qayasında olan Binyamin
övladlarının yanına adam göndərib danışdı və on-
ları barışığa çağırdı. 14 O vaxt Binyaminlilər
qayıtdılar və Yaveş-Gilead qadınlarından sağ qalan
qadınlar onlara verildi, lakin gətirilənlər onların
hamısına çatmadı. 15 Xalq Binyaminlilərdən ötrü
kədərləndi, çünki Rəbb İsrail qəbilələri arasında bir
yarıq açmışdı.

16 İcmanın ağsaqqalları dedi: «Qalanlar üçün necə
arvad tapaq? Çünki Binyamindəki qadınlar həlak
olmuşdu». 17 Ağsaqqallar sözlərinə davam etdi: «İs-
raildən bir qəbilə silinməsin deyə Binyamində sağ
qalan oğulların varisi olmalıdır. 18 Biz qızlarımızı
onlara ərə verə bilmərik, çünki İsrail övladları
“Binyaminliyə qız verən lənətə gəlsin” deyə and
içmişdilər».

19 Onlar sonra dedilər: «Baxın Bet-Elin şimalında,
Bet-Eldən Şekemə çıxan əsas yolun şərqində və
Levonanın cənubunda olan Şiloda ilbəil Rəbbin
bayramı olur». 20 Beləliklə, Binyamin övladlarına
belə əmr etdilər: «Gedib üzüm bağlarında pusquda
durun, 21 baxın, güdün, Şilo qızları rəqsə çıxanda cəld
bağlardan çıxın, hər kəs özünə arvad etmək üçün
bir Şilo qızı götürüb Binyamin torpağına qaçsın.
22 Əgər onların ataları ya da qardaşları bizim
yanımıza şikayətə gəlsələr, onlara belə deyərik:
“Bizim xatirimizə Binyaminliləri bağışlayın, çünki
əsir aldığımız qızlar hamısına çatmadı. Siz də onlara
qız vermədiyinizə görə təqsirkar deyilsiniz”».

23 Binyamin övladları belə də etdilər və öz
saylarına görə rəqs edən qızlardan götürüb qaçdılar.
Sonra öz irs olan torpaqlarına qayıtdılar və

şəhərləri bərpa edib o yerlərdə yaşadılar. 24 O
vaxt İsrail övladları oranı tərk etdilər. Hər biri öz qəbiləsinə və öz nəslinin yanına qayıtdı, hər biri öz irs olan torpağına getdi.
25 * O dövrdə İsraildə padşah yox idi, hərə öz gözündə doğru görünən işi edirdi.

* **21:25** Hak. 17:6

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http://creativecommons.org/licenses/by-nc-nd/3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.
You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:

You must give Attribution to the work.

You do not sell this work for a profit.

You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.

Permissions beyond the scope of this license may be available if you contact us with your request.
This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.
You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:

You include the above copyright and source information.

You do not sell this work for a profit.

You do not change any of the words or punctuation of the Scriptures.

Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

---

PDF generated using Haiola and XeLaTeX on 21 Feb 2024 from source files dated 31 Aug 2023
5d1dd449-0589-5c75-ab0e-6b96786f2985